# ADP-dən DTX-nın ifşa etdiyi İran casusları haqda bəyanat

SİZİN ÜÇÜN QƏZET

# Hürriyyət

№39 (3237) 15 Noyabr / 2022-ci il  Həftədə 1 dəfə çıxır  Qiyməti: 60 qəpik

**ANA XƏBƏR**



## İran Azərbaycana yenidən nota verdi

# Vaqif Axundovun adamlarından nazirliyə "əzələ nümayişi"




**GÜNÜN NƏBZİ**

Layihə

## Ölkəmizi parçalamağa çalışan fars-molla rejiminin ifşası...



Elxan Şahinoğlu: "İlham Əliyevin İranla və Güney Azərbaycandakı soydaşlarımızla bağlı son açıqlamaları Tehran rejimini silkələyib" 8-9

Təhlil

## Ruslara inanmaq olarmı?

"İt əl çəkdi, motal əl çəkmədi" - bu qədər rəzalətdən sonra da biz yenə Moskvaya boylanırıq 5

Şikayət

## Ucar sakinləri icra başçısından şikayətçidir

"Talançılıq yolu ilə milyonlara sahib olan Mənsur Məmmədovun gözü doymaq bilmir..." 4

Gündəm

## Turan Birliyi iqtisadi təməllərlə necə qurulur?

Türkiyə ağır tarixi imtahandan keçir... 7

Şikayət

## "Su barəsi betonlanmadığı üçün evimin altına su dolub"

Əliyar Həşimov: "Şakir Əhmədov bilərəkdən məni sizdən narazı salır, əks halda, mənim problemimi dərhal həll edərdi" 4

Sərbəst

## Əllər tək qiyamət günü deyil, indi də danışır...



Çalışın ki, barmaq izləriniz ancaq gözəl əməllərin üzərində qalsın 12

Toplum

## "Kamran Əliyev Rusiya səfirliyini aldadıb"



Böyükağa Abdullayev: "Bütün qanunsuz hərəkətlərin başında Baş prokurorun durduğunu təkcə biz demirik..." 10

Şikayət

## Göyçayın Suvarma Sistemləri İdarəsinin rəisi haqqında şok iddialar

Şakir Əhmədov dövlətin külli miqdarda vəsaitini talan etməkdə ittiham olunur

Göyçay rayonu, Bığır kənd sakini Hümbətov Asif Ataş oğlu tərəfindən "Hürriyyət" qazetinin redaksiyasına şikayət məktubu daxil olub. Qəzetimiz vasitəsilə Prezident İlham Əliyevə, Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin sədri Zaur Mikayılova və Göyçay rayon İcra Hakimiyyətinin başçısı Natiq Ağayevə müraciət edən şikayətçi iddia edir ki, Göyçay rayon Suvarma Sistemləri İdarəsinin rəisi Şakir Əhmədov dövlətin ayırdığı vəsaiti təyinatı üzrə xərcləmədən talan etsə də, indiyə qədər onun barəsində qanuni tədbir görülmür... 4

Ölkə

## Bakının mərkəzində "TeaFond"a məxsus milyonluq obyekt necə ələ keçirilib?

"Teafond" QTSC-nin direktoru Şamil Ağayev Teatr Xadimləri İttifaqının İdarə Heyətinin sədri Azərpaşa Nemətovu saxtakarlıqda ittiham edir...

29 dekabr 2006-cı ildə prezident İlham Əliyev 222-IIIQ saylı "Teatr və teatr haqqında Azərbaycan Respublikası Qanunu"nu imzalayıb. 98 maddəlik qanunda faktiki olaraq, milli teatrımızın inkişafı adına hər şey demokratik biçimdə öz yerindədir. Prezident İlham Əliyev 18 may 2009-cu il tarixdə "Azərbaycan teatrı 2009-2019-cu illərdə" Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında 277 saylı sərəncamı ilə mədəniyyətə və teatra verdiyi dəyəri daha da gücləndirib. 6

SİZİN ÜÇÜN QƏZET
# Hürriyyət
№39 (3237) 15 Noyabr / 2022-ci il Həftədə 1 dəfə çıxır Qiymətı: 60 qəpik

# Dünyanın ən bahalı evləri və sahibləri...



**Məşhur dizayner Veronika Tabenskaya dünyanın ən bahalı evlərindən danışıb. Milli.Az xarici mətbuata istinadən xəbər verir ki, dünyanın ən bahalı villası amerikalı müğənni Alişa Keyzə aiddir.**

## Alişa Keyz 45 milyon dollar

Tanınmış memar Uolles Kaninnqemin dizayn etdiyi "Razor House" 2008-ci ildə inşa edilib. Villanın bazar dəyəri 45 milyon dollar olub. Müğənni Alişa Keyz bu evi ümumi dəyərindən təxminən 10 milyon dollar daha ucuz - 20,8 milyon dollara alıb.

Təbii ki, evin əsas sərvəti müəllifin memarlığı və Kaliforniyada La Jolla qayalığından Sakit Okeana açılan panoramasıdır. Panoramik şüşələr daxili interyerlə çöl arasındakı xətti silir. Bu evdə hər bir insan özünü təbiətin bir hissəsi kimi hiss edir. Belə arxitekturada mebel bolluğu nəzərə çarpmır, yalnız minimalist notlar qeyd olunur. İnteryerin qiyməti həm də təbii materialların geniş istifadəsi hesabına formalaşıb.

## Dayan Kiton 15 milyon dollar

Məşhur kinoaktrisa Dayan Kiton dizaynerliklər çoxdan məşğuldur. Evləri alır, bəzəyir, sonra satır. Adətən o, 20-ci əsrin məşhur memarlarının qələmindən çıxmış evləri alır. Fotodakı evin dizaynı 20-ci əsrin böyük memarlarından birinin oğlu Frank Lloyd Rayta aiddir. Alfred Nyuman melodiyalarını bu evdə bəstələyib, bina xüsusi olaraq onun üçün tikilib. Odur ki, ev Neyman Rezidensi adıyla məşhurdur.

Dayan Kiton iqamətgahın ilkin üslubunu saxlasa da, bir çox detalları yeniləyib. Dekorator kimi o, evin xarici əhvalruhiyyəsini interyerə ötürməyi bacarıb.

## Cennifer Lourens 12 milyon dollar

Cennifer Lourensin Nyu-Yorkda 30-cu mərtəbədə yerləşən Hudzon mənzərəli penthausu çox dəyərlidir. Aktrisanın bir neçə il əvvəl 15,6 milyon dollara aldığı ev indi 12 milyon dollara satışa çıxarılıb. 4073 kvadratmetrlik ev 3 yataq otağı, 5 vanna otağı, 2 geniş qonaq otağı, aşpaz üçün təchiz olunmuş mətbəx və yemək otağından ibarətdir.

## Bey Yominin 8 milyonluq evi

Böyük memar və Pritzker mükafatı laureatı Bay Yuminin (Yo Min Pey) ölümündən sonra həyat yoldaşı Manhettendə son 45 il ərzində yaşadıqları evi satışa çıxarıb. Bey Yumin daha çox Parisdəki Luvrun şüşə piramidası və Honq Konqdakı "Bank of China Tower" layihəsi ilə tanınır.

Yuminin evi Viktoriya üslubunda tikilib, interyer isə memarın özünə məxsusdur. Onun rəhbərliyi altında yenidən dizayn edildikdən sonra ev modernist mebellərlə təchiz olunub, memarlıq da qismən dəyişdirilib. Yerdən tavana qədər olan pəncərələr birbaşa Satton Meydanına açılır.

## Pianoçu bala Mark Vulfun 6,5 milyon dollarlıq evi

Evi 1961-ci ildə böyük Frank Lloyd Raytın tələbəsi, memar Con Lotner dizayn edib. Müştəri Raytın "Şəlalənin üstündəki ev" əsərinə bənzər bir ev yaratmağı xahiş edib. Con şah əsəri ustalıqla yerinə yetirib. Yeri gəlmişkən, memar film çəkilişləri üçün də olduqca unikal evlər yaradıb. Vulf Rezidensi çox orijinal alınıb, O, müxtəlif dövrlərdə tikilən iki binadan ibarətdir: əsas hissə (154 kv.m.) və əlavə tikili (108 kv.m.).

İndi ev demək olar ki, təmirsizdir, lakin memarlığının qiymətləndirilməsinə maneə olmur. Ev rəsmi olaraq Los Ancelesin mədəni irsi hesab olunur.

## Yenə Dayan Kiton və onun 4,5 milyonluq evi

Frank Lloyd Raydın Cənubi Kaliforniyada inşa etdiyi evi də alan Dayan Kiton onun bərpası ilə özü məşğul olub. Ev Kaliforniyanın tarix və mədəniyyət abidəsi siyahısına daxildir. Kaliforniyanın Los Feliz şəhərində yerləşir.

Kitonun məqsədi orijinal interyeri yenidən yaratmaq və onu yenidən qurmaq idi. Bu yenidənqurma sıfırdan ev tikməkdən daha çətin və bəzən daha çox maliyyə tələb edən incə bir işdir.

"Art Deco" üslubu artıq fasaddan görünür. Memar burada yaşaya biləcəyiniz müxtəlif fəaliyyət növləri təklif edir, binanın estetik görünüşü də hərtərəfli düşünülüb. Hovuzda üzmək, qonaq otağında nahar etmək, səhər yataq otağında oyanmaq və terrasda səhər yeməyi yeməyinizdən asılı olmayaraq, hər zaman təbiətin əhatəsindəsiniz. Pəncərədən açılan mənzərələr rəsm əsərlərini xatırladır.

# Tramp kiçik qızını ərə verdi...



**ABŞ-ın keçmiş prezidenti Donald Trampın Marla Meyplezlə evliliyindən olan kiçik qızı Tiffani nigeriyalı milyarder Maykl Bulosa ərə gedib.**

Oxu.az xəbər verir ki, toy siyasətçinin Florida ştatındakı Mar-a-Larqo malikanəsində baş tutub.

Mərasim zamanı Tramp həyat yoldaşı Melaniya ilə Frank Sinatranın mahnılarından biri altında rəqs edib. Toyda ümumilikdə 250 qonaq iştirak edib.

Qeyd edək ki, Tiffani və Maykl ilk dəfə 2018-ci ilin yayında Mikonosda tətildə olarkən tanış olublar.

## Əyləncə səhifəsi

# Təsadüfən nənəsinə 40 000 cüt corab göndərib

**Reddit istifadəçisi "allthesoxintheworld" ona təsadüfən minlərlə corab qutuları göndərilməsi barədə hekayə paylaşıb. Dediyinə görə, o, istehsalat şirkətindən ictimai təşkilatı üçün ianə istəyib, amma gözlədiyindən qat-qat artıq alıb.**



Yazı müəllifi bildirib ki, o, ehtiyacı olan insanlara yardım edən qeyri-kommersiya təşkilatının rəhbəridir. Onun sözlərinə görə, internetdə satılan hər cütə bir pulsuz cüt corab verən şirkətin elanını görüb və ondan ianə istəyib. Məktubda hekayənin qəhrəmanı onlardan istədikləri qədərini xeyriyyə işlərinə göndərməyi xahiş edib.

Şirkət yükün hansı ünvana çatdırılmalı olduğunu soruşub. Kişi nənəsinin iki maşın üçün nəzərdə tutulmuş geniş qarajı olduğunu bildiyi üçün çaş-baş qalıb və onun ünvanını verib. "Beləliklə, təxminən bir həftə keçdi, onlardan heç nə eşitmədik. Sadəcə öz işimlə məşğul idim. Mən e-poçt alana qədər. İanə 200 qutu corab təşkil etdi və onlar dünən göndərildi!", - müəllif yazıb. O əlavə edib ki, şirkət ümumilikdə 40 min cüt corabı göstərilən ünvana göndərəcək.

Kişi baş verənlərdən ziddiyyətli emosiyalar yaşadığını etiraf edib. "Belə əhəmiyyətli bir ianə aldığım üçün çox şadam. Biz kiçik bir təşkilatıq, ona görə də bu, böyük bir işdir. Digər tərəfdən, ümid edirəm ki, nənəm öz evində corab qutuları ilə barrikada qurmasın", - deyə istifadəçi yazıb. Müəllif əlavə edib ki, 200 qutu corab nənəsinin qarajına sığmaya bilər, ona görə də o, yükün uyğun yerə daşınması üçün avtonəqliyyat xidmətindən istifadə etməyi planlaşdırır.

**Təsisçi:**
Sərdar Cəlaloğlu

**Baş redaktor:**
Vüqar Məmmədov
Tel: 070 333 22 85
012 496 98 93
E-mail: vuqar-mt@mail.ru

**Dizayner:**
Seymur Həsənov

"Hürriyyət" qəzetinin internet unvanı:
**Hurriyyet.az**
E-mail: hurriyyet@mail.ru
**Tiraj: 2500**

**Redaksiyanın ünvanı:**
AZ 1008, Bakı, akademik Ələşrəf Əlizadə küçəsi, 31
Telefonlar: 496-10-72; 496-08-35

Lisenziyanın qeydiyyat nömrəsi: V 165
Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
Əlyazmalar geri qaytarılmır.
Redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnir və "Futbol+ servis" mətbəəsində çap edilib.

HR Bu işarə altında dərc olunan yazılar reklam xarakterlidir.

Qəzet 1991-ci ildən çıxır.

# KXCP Əbülfəz Elçibəyi ziyarət edəcək

17 Noyabr Milli Dirçəliş Günü münasibəti ilə

**Dünən Klassik Xalq Cəbhəsi Partiyası İdarə Heyətinin növbəti yığıncağı keçirilmişdir. Partiyanın mətbuat xidmətindən "Hürriyyət"ə verilən məlumata əsasən, yığıncaqda qərarların icra vəziyyəti, ictimai - siyasi vəziyyət, qarşıda duran vəzifələr və cari məsələlər müzakirə olunmuş, müvafiq qərarlar qəbul edilmişdir.**

KXCP İdarə Heyəti Türkiyənin İstanbul şəhərinin Bəyoğlu məhəlləsi İstiqlal küçəsində vaş verən terror hadisəsi nəticəsində şəhid olanların ailə üzvlərinə və yaxınlarına, Türkiyə dövlətinə, qardaş Türk xalqına dərin hüznlə baş sağlığı verir, yaralılara təcili şəfa diləyir.

KXCP bir daha terroru qətiyyətlə pislədiyini bəyan edir.

KXCP İdarə Heyəti 17 Noyabr Milli Dirçəliş Günü münasibəti ilə saat 12:00-da Fəxri Xiyabanda Milli Azadlıq Hərəkatının Lideri Əbülfəz Elçibəyi ziyarət etməklə bağlı qərar qəbul edib.

KXCP İdarə Heyəti, ölkədəki gərgin sosial iqtisadi vəziyyətlə bağlı bəyanat qəbul edib.

KXCP İdarə Heyəti, faşist rus ordusunun rəhbərliyi ilə Ermənistan silahlı qüvvələrinin Qarabağda Kəlbəcər rayon ərazisini atəşə tutmasını qətiyyətlə pisləyir.

KXCP İdarə Heyəti, Tərtər işinin istintaqını müzakirə edərək, bir daha nəticələrin qeyri - qənaətbəxş olduğunu qeyd etdi.

KXCP İdarə Heyəti, Tehran fars - şovinist anti - islam cümhuriyyəti rejiminin dinc əhaliyə qarşı vəhşilik və edamlarla müşaiyət olunan soyqırımı bir daha qətiyyətlə pisləyir.

KXCP İdarə Heyəti, Ukraynadakı son vəziyyəti müzakirə edərək qəhrəman Ukrayna ordusunun Xerson şəhərini faşist rus ordusundan azad etməyi münasibəti ilə dost Ukrayna xalqını və Ukrayna dövlətini təbrik edir.

KXCP, Ukrayna xalqının və Ukrayna dövlətinin rus işğalına qarşı mübarizəsini dəstəklədiyini bir daha bəyan edir.

**Hazırladı: KƏNAN**

## ELAN

**Azərbaycan Dövlət Pedaqoji Universiteti tərəfindən 1998-ci ildə Rəhimov Kənan Bayram oğluna verilmiş diplom itdiyi üçün etibarsız sayılır.**

# ADP-dən DTX-nın ifşa etdiyi İran casusları haqda bəyanat

**Dünən ADP İdarə Heyətinin ölkə və beynəlxalq aləmdə baş verən ictimai-siyasi proseslərə dair növbəti toplantısı keçirilib. Partiyanın mətbuat xidmətindən "Hürriyyət"ə verilən məlumata əsasən, İdarə Heyəti ilk növbədə Ukrayna ilə Rusiya arasında davam edən və getdikcə daha qanlı forma alan müharibəyə münasibət bildirib. Partiya yetkililəri Rusiyanın işğal və ilhaq siyasətinə söykənən hərbi təcavüzünü pisləməklə son vaxtlar Ukrrayna ordusunun əldə etdiyi hərbi üstünlükləri, Xerson kimi strateji əhəmiyyətli vilayətin, o cümlədən digər əyalətlərin rus işğalından azad etməsini təqdir edib və Qərb ölkələrini Rusiyanın təcavüzünün qarşısını almaq üçün daha ciddi tədbirlər görməyə çağırıb.**



## Partiya bu istiqamətdə səylərin davam etdirilməsinin vacibliyini diqqətə çatdırıb

İdarə Heyəti son günlər İranla Azərbaycan arasında münasibətlərin gərginləşməsindən, İranın rəsmi dairələrinin ölkəmizə qarşı təxribat xarakterli hərəkətlərini davam etdirməsindən, ölkəmiz daxilində casus şəbəkəsi yaratmasından, təcavüzkar Ermənistanı açıq şəkildə dəstəkləməsindən ciddi narahat olduğunu bildirib və bu hərəkətlərin iki ölkə arasında dostluq və əməkdaşlığın ruhuna zidd olduğunu diqqətə çatdırıb. Partiya rəsmiləri, eyni zamanda, son vaxtlar İranın ölkəmiz daxilində qurduğu casus şəbəkəsinin faş edilməsində, İrana xidmət edən müxtəlif dini, etnik kimliklərin ortaya çıxarılmasında peşəkarlıq göstərən Dövlət Təhlükəsizlik Xidmətinin işini təqdir edib və bu istiqamətdə səylərin davam etdirilməsinin vacibliyini diqqətə çatdırıb.

İdarə Heyəti Türk dövlətləri Təşkilatının Səmərqənd sammitində İranda yaşayan soydaşlarımızın hüquqlarının qorunması, onlara qarşı yeridilən milli, etnik ayrı-seçkiliyin yolverilməz olması ilə bağlı mesajlar verməsini təqdir etməklə cənublu mühacir soydaşlarımıza Azərbaycanda sərbəst fəaliyyət göstərməsi, haqq səslərinin dünyaya çatdırılması üçün şərait yaradılmasının vacibliyini də diqqətə çatdırıb.

İdarə Heyəti ABŞ rəsmilərinin İranın Azərbaycana təhdidləri, hücumları olacağı təqdirdə Azərbaycan xalqının yanında yer alacağı, Ermənistan Azərbaycan münaqişəsinin ölkəmizin ərazi bütövlüyü, suverenliyi çərçivəsində həllinə çalışacağı barədə verdiyi bəyanatları təqdir edib və bu yanaşmanın Azərbaycanla ABŞ arasında hərtərəfli əlaqələrin genişlənməsinə stimul verəcəyini bildirib.

İdarə Heyəti Türkiyədə törədilən terror hadisəsi nəticəsində həlak olan insanların ailələrinə dərin hüznlə başsağlığı ünvanlayıb, çoxlu sayda yaralanan qardaşlarımıza Allahdan şəfa diləyib. İdarə Heyəti terror aktını törədən, bu aktın arxasında duran qüvvələrin əsas məqsədinin Türkiyənin varlığını, müstəqilliyini sarsıtmaq məqsədi güddüyünü bildirib, Türkiyə təhlükəsizlik orqanlarının tezliklə bu qüvvələri aşkar edərək cəzalandıracağına əminliyini ifadə edib, həmçinin bu terror şəbəkəsinin bir ucunun Azərbaycana sızma ehtimalından dolayı ölkəmizin güc strukturlarını ayıq-sayıq olmağa çağırıb.

İdarə Heyəti AXCP-nin 11 noyabr tarixində keçirdiyi etiraz aksiyasına da münasibət bildirib. Partiya rəsmiləri aksiya zamanı vətəndaşlara qarşı tətbiq edilən polis zorakılığını, aşırı güc tətbiq edilməsini, aksiya iştirakçılarının həbs edilməsini pisləyib və hakimiyyəti ölkədə insan hüquq və azadlıqlarının qorunması, sərbəst toplaşmaq, alternativ fikrə hörmət, siyasi plüralizm, fikir azadlığı barədə üzərinə götürdüyü beynəlxalq öhdəliklərə əməl etməyə və ölkədə mövcud olan siyasi məhbus probleminə son qoymağa çağırıb.

**Hazırladı: KƏNAN**

# Baş redaktor haqqında həbs qərarı dəyişdirildi

**Demokratik.az saytının baş redaktoru Osman Nərmanoğlu haqqında Göygöl Rayon Məhkəməsinin qərarı ilə 5 iyul 2022-ci il tarixdə 4 aylıq həbs qətimkan tədbiri seçilib. Xatırladaq ki, demokratik.az saytının rəhbəri Osman Nərimanoğlu (Rzayevin) Göygöl Rayon Mərkəzi Xəstəxanasının direktoru Vasif Əliyevin, xəstəxananın şöbə müdiri Əlikömək Alıyevin və həkim Rəşad Əkbərovun, o cümlədən Goranboy Rayon Suvarma Sistemləri İdarəsinin müdiri İlqar Məmmədovun ərizəsi əsasında saxlanılıb.**



Onu da nəzərinizə çatdıraq ki, noyabr ayının əvvəllərində Osman Nərmanoğlu haqqında seçilən həbs qətimkan tədbirinin müddəti məhkəmə qərarı ilə daha 3 ay uzadılıb. Lakin hələlik demokratik.az saytının baş redaktorunun həbs olunmasına əsas verən arqumentlər ictimaiyyətə açıqlanmayıb. Sadəcə, onun yuxarıda adıçəkilən şikayətçilərin ərizəsi haqqında saxlanılması haqqında məlumatlar var. Belə ki, demokratik.az saytında dərc olunan yazılar aidiyyəti üzrə yoxlanılmadan, adları şikayətçi siyahısında olanların iş fəaliyyəti araşdırılmadan belə bir qərarın verilməsi Osman Rzayevin həbsi ilə bağlı qaranlıq məqamların olduğunu ortaya qoyur və yeni suallar yaradır. Odur ki, adıçəkilən şəxslər haqqında demokratik-.az saytında dərc olunan yazılar, orada qeyd olunan məqamlar araşdırılmalı və bundan sonra yazılanların ya absud, ya da həqiqət olduğuna qərar verilməlidir. Belə bir hal olmadığı üçün cəza tədbirinin görülməsi həbs olunan şəxsin hüquqlarının kobud şəkildə pozulması kimi qiymətləndirilməlidir.

**Mövzuya qayıdacayıq...**

**AZƏR,**
**Gəncə müxbiri**

# Vaqif Axundovun adamlarından nazirliyə “əzələ nümayişi”

## General-polkovnik nəzarətində olan Sarısu Ovçuluq Təsərrüfatı və Hərbi Ovçuluq Cəmiyyəti qanunsuz ovla məşğul olan turistlərə geniş şərait yaradır...

**Bir neçə gün əvvəl Ekologiya və Təbii Sərvətlər Nazirliyi "Ovçuluq haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə əməl olunması məqsədilə Saatlı rayonu ərazisində reyd keçirib. Sarısu Ovçuluq Təsərrüfatında keçirilən reyd zamanı qanunsuz ovla məşğul olan çoxsaylı əcnəbi vətəndaş cərmələnib, eyni zamanda qanunsuz silahlardan istifadə olunması müəyyənləşdirilib və aktlaşdırılıb.**

Qeyd edək ki, Sarısu Ovçuluq Təsərrüfatında reyd keçirilməsini Ekologiya və Təbii Sərvətlər Nazirliyi də təsdiqləyib. Nazirliyin Mətbuat Xidmətindən bildirilib ki, həqiqətən də noyabrın 5-də sözügedən ovçuluq təsərrüfatında qanunsuz ovla məşğul olan şəxslərə qarşı reyd keçirilibg

### General-polkovnikin hobbisi...

Azsiyaset.com saytının məlumatına görə, Sarısu Ovçuluq Təsərrüfatı bir neçə il bundan əvvəl 2020-ci ildə ləğv edilən Xüsusi Dövlət Mühafizə Xidmətinin (XDMX) rəisi, general-polkovnik Vaqif Axundov tərəfindən bir zənglə şəxsi nəzarətə götürülüb. Nazirlər kabineti də bununla bağlı qərar verib.

Sayt xatırladır ki, V.Axundov istefaya göndərildikdən sonra Prezident İlham Əliyevin fərmanı ilə XDMX-nın yerində 3 qurum yaradıldı. Məhz bundan sonra Sarısu Ovçuluq Təsərrüfatı XDMX-nın yerində yaradılan 3 qurumdan birinin - Prezidentin Təhlükəsizlik Xidmətinin balansına daxil oldu. Ovçuluğa xüsusi marağı olan V.Axundov həmin vaxt həm də Azərbaycan Atıcılıq Federasiyasının prezidenti vəzifəsini daşıyır və paralel olaraq Ovçuluq təsərrüfatı da onun yaxınları tərəfindən idarə olunurdu.

Saytın redaksiyasına daxil olan məlumatlardan aydın olur ki, hazırda Sarısu Ovçuluq Təsərrüfatı Hərbi Ovçuluq Cəmiyyətinin sədri Rasim Rzayev tərəfindən istismar olunur. O, V.Axundovun yaxın adamlarından biri kimi Atıcılıq Federasiyasında da vitse-prezident postunu tutub.


Vaqif Axundov

### Hərbi Ovçuluq Cəmiyyəti nazirlik qədər səlahiyyətə malikdir

Əlbəttə, ilk baxışdan bütün iradlar yenə də Ekologiya və Təbii Sərvətlər Nazirliyinin üzərində cəmləşir. Çünki ovçuluq biletləri vermək səlahiyyəti məhz bu nazirliyə məxsusdur. Ancaq məsələnin dərinliyinə gedəndə aydın olur ki, Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə yanaşı, Hərbi Ovçuluq Cəmiyyəti də ovçuluq biletləri vermək səlahiyyətinə sahibdir. Bu amil isə cəmiyyətin ovçuluq təsərrüfatlarındakı qanunsuz hərəkətlərinə geniş imkanlar yaradır.

Xatırladaq ki, əcnəbilərin Azərbaycanda qanunsuz ovla məşğul olması dəfələrlə vətəndaşlarımızın etirazına səbəb olub. Şübhəsiz, onlar bu məsələdə haqsız da deyillər. Çünki hansı ölkədən və nə məqsədlə ölkəmizə gəlmələrindən asılı olmayaraq, bütün turistlərin Azərbaycan qanunlarına əməl etməsi vacib şərtdir. Onlar qanunlarımız haqda yetərli bilgiyə sahib olmasalar belə, müvafiq qurumların bu haqda turistləri məlumatlandırması lazımdır.

### Nazirlik qanunsuz ovların qarşısını necə almalıdır?

Xüsusən də Ekologiya və Təbii Sərvətlər Nazirliyi onlar üçün bələdçi ayırmalı, ovlanması yasaq olan quşlar və heyvanlarla bağlı yetərli məlumat verilməli, üstəlik ciddi nəzarət mexanizmi qurmalıdır. Bütün bunlara paralel olaraq Bəhreyn, Küveyt, Qatar, İraq, Oman, BƏƏ, Səudiyyə Ərəbsistanı və s. ölkələrdən ov etmək məqsədilə ölkəmizə gələn turistlərin sayını artırmaq üçün də rəsmi səviyyədə təbliğat aparılmalı, onların ölkəmizdən yüksək əhval-ruhiyyədə qayıtması təmin edilməlidir. Çünki bu turistlərin hesabına ölkəmizə külli miqdarda valyuta daxil olur ki, bu da büdcəmizin artmasında önəmli rol oynayır.

Doğrudur, Ekologiya və Təbii Sərvətlər Nazirliyi bu sahədə ciddi tədbirlər paketi həyata keçirir. Əslində, əcnəbi turistlərlə bağlı arzuolunmaz mənzərənin ortaya çıxması sabiq nazir Hüseynqulu Bağırovun zamanından qalan problemlərlə bağlı idi. Lakin Muxtar Babayevin kompleks tədbirlər planı, belə demək olarsa, ümumilikdə nazirliyin fəaliyyətində ciddi dönüşün əldə olunması ilə nəticələnib. Təbii ki, bu gün də Ekologiya və Təbii Sərvətlər Nazirliyinin fəaliyyətində nöqsanlar var. Lakin bu nöqsanların aradan qaldırılacağı ilə bağlı ümidlər də az deyil.

### Əcnəbilərlə dil tapmaq olar, bəs yerli məmurlarla necə...?

Ümumiyyətlə, Azərbaycanda əcnəbi turistlərlə bağlı illər öncədən mövcud olan problemin artıq həll edilmək üzrə olduğunu düşünmək olar. Lakin təəssüflə qeyd edilməlidir ki, bu gün dövlət maraqlarını ciblərinin doldurulmasına qurban verən məmurlarla dil tapmaq daha çətin olub. Əslində, Sarısu Ovçuluq Təsərrüfatında keçirilən reyd zamanı ortaya çıxan həqiqətlər də belə deməyə əsas verir ki, general-polkovnik Vaqif Axundovun himayəsi altında fəaliyyət göstərən Sarısu Ovçuluq Təsərrüfatı və Hərbi Ovçuluq Cəmiyyəti əcnəbilərin qanunsuz ov etməsinə “yaşıl işıq” yandırmaqla, yenə də öz çıxarlarını ön plana çəkiblər. Həm də dövlət maraqlarını zərbə altında qoymaq, ölkə qanunlarını tapdalamaqla. Belə olduğu halda isə Ekologiya və Təbii Sərvətlər Nazirliyinin ölkədə qanunsuz ovların qarşısını almaqda nə üçün çətinlik çəkdiyi aydın olur.


Rasim Rzayev

Xatıradaq ki, bundan əvvəl - 2021-ci ildə də Sarısu Ovçuluq Təsərrüfatında qanunsuz ov edən xarici vətəndaşlar - Aldarwish Omar, Alqadhan Mohammed, Alawjan Saad və Adil Zülfüqarov adlı şəxslər 7000 manat məbləğində cərimə olunmuşdular. Lakin nəzərə alsaq ki, cərimə olunanlar qanunsuz ov edən şəxslərin cüzi bir hissəsidir, deməli, dövlətə daha böyük zərər dəyir. Həm də hansısa məmurların qanunsuz yollarla cibini doldurması hesabına. Elə Azsiyaset.com saytı da yazır ki, Sarısu Ovçuluq Təsərrüfatının rəhbəri İsmi Atakişiyevlə Hərbi Ovçuluq Cəmiyyətinin sədri Rasim Rzayev arasındakı “ittifaq” nəticədə Azərbaycan təbiətinin, flora-faunasının məhvinə səbəb olub. Büdcəyə isə heç bir vəsait ödənilmir.

**“Ümumiyyətlə, ölkədə şəxsi maraqlarının təmin olunmasına hesabına təbiətin ən çox məhv edildiyi təsərrüfatlardan biri, bəlkə də birincisi Sarısudur.**

**Müxtəlif səbəblər ucbatından Ekologiya və Təbii sərvətlər Nazirliyinin Sarısu Ovçuluq Təsərrüfatına müdaxilə imkanları az olduğuna görə, orada vəziyyət günbəgün daha da acınacaqlı hal alır. Son 10 il ərzində reydlərin sayına görə, təsərrüfatların siyahısında Sarısu ilk yerdə qərarlaşıb”, - deyə sayt vurğulayır.**

**Hazırladı: RƏŞAD**

***Redaksiyadan: Mövzunu diqqət saxlayacağıq. Yazıda adları qeyd olunan qurumların və şəxslərin də mövqeyini dərc etməyə hazırıq.***

# “Su bərəsi betonlanmadığı üçün evimin altına su dolub”

Əliyar Həşimov: “Şakir Əhmədov bilərəkdən məni sizdən narazı salır, əks halda, mənim problemimi dərhal həll edərdi”


AZƏRBAYCAN RESPUBLİKASI
VƏTƏNDAŞININ ŞƏXSİYYƏT VƏSİQƏSİ
Seriya AZE № 17360280
Soyadı
HƏŞİMOV
Adı
ƏLİYAR
Atasının adı
MƏMMƏD OĞLU
Doğulduğu yer və tarix
AZƏRBAYCAN,GÖYÇAY şəh.
07.02.1964
I<AZEHASHIMOV<<ALIYAR<<<<<<<<<<<<<<<<
17360280<1AZE6402075M<<<<<<050KE4DY6


AZƏRBAYCAN RESPUBLİKASININ ƏDLİYYƏ NAZİRLİYİ
MƏHKƏMƏ EKSPERTİZASI MƏRKƏZİ
AZ 1000, Bakı şəhəri, Xaqani küçəsi 24
Tel.: (+994 12) 598-53-72 Faks: (+994 12) 493-18-52 Elektron poçt: info@expert.gov.az
“28” 10 2022-ci il №770

Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinə

√ məlumat üçün: Həşimov Əliyar Məmməd oğluna Göyçay rayonu, İ.Göyçaylı küçəsi, ev 4/7

Vətəndaş Həşimov Əliyar Məmməd oğlunun Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertizası Mərkəzinə daxil olmuş müraciəti aidiyyəti üzrə baxılması üçün göndərilir.

Nəticəsi barədə müraciət müəllifinə məlumat verilməsi xahiş olunur.

Qoşma: 2 vərəq birinci ünvana

Rəis müavini vəzifəsini icra edən baş ədliyyə müşaviri Rəhim Rəhimov


AZƏRBAYCAN RESPUBLİKASININ ƏDLİYYƏ NAZİRLİYİ
BƏLƏDİYYƏLƏRLƏ İŞ MƏRKƏZİ
AZ 1073, Bakı şəhəri, İnşaatçılar prospekti 5. Telefon 538-68-42, faks 539-05-44
Elektron poçtu: municipal.center@justice.gov.az
“28” 10 2022-ci il № 09/11-2101/2

Göyçay regional ədliyyə idarəsinin rəisi cənab Elnur Əsədova

Surəti: Göyçay şəhəri, İ.Göyçaylı küçəsi 4/7
aliarg806@gmail.com
Əliyar Həşimova

Vətəndaş Əliyar Həşimovun Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə daxil olmuş müraciəti baxılması üçün Sizə göndərilir.

Müraciətə baxılmasının nəticəsi barədə vətəndaşa cavab verilməsi xahiş olunur.

Qoşma: 2 vərəq.

Rəis Rəhman Məmmədov

**Göyçay şəhər sakini, İbrahim Göyçaylı küçəsi 4/7 ünvanında yaşayan Həşimov Əliyar Məmməd oğlu tərəfindən “Hürriyyət”in redaksiyasına şikayət məktubu daxil olub. Qəzetimiz vasitəsilə Prezident İlham Əliyevə müraciət edən şikayətçinin məktubunu olduğu kimi dərc edirik:**

**“Cənab Prezident!**

Bu şikayət ərizəmlə yazıb sizdən xahiş edirəm ki, göstərdiyim cinayət faktları obyektiv araşdırılıb, qanuna müvafiq tədbirlər görülməsinə tapşırıq verəsiniz.

Mən Həşimov Əliyar Məmməd oğlu, dəfələrlə Göyçay Suvarma Sistemləri İdarəsinin rəisi Şakir Əhmədova, yaşadığım həyətyanı sahədən keçən arxla bağlı müraciət edərək bildirmişəm ki, su arxının təxminən 100 (yüz metr) məsafəsinə beton vurulsa, arxın su hövzəsi daşmaz və mənim yaşadığım evin altına su dolub, evimi qəzalı vəziyyətə düşməsinə gətirib çıxartmaz.

Lakin dəfələrlə Göyçay Suvarma Sistemləri İdarəsinin rəisi Şakir Əhmədovun işçiləri və Lətif adlı mühəndisi evimə gəlib baxaraq, heç bir iş görməyiblər. Su bərəsi betonlanmadığı üçün daşıb evimin altına su dolub. Nəticədə isə evim qəzalı vəziyyətə düşüb ki, hər an uça bilər. Buna görə həyat və sağlamlığımız ciddi təhlükə altındadır.

Mən üzləşdiyim bu problemin həll edilməsi üçün aidiyyatı orqanlara çoxlu sayda ərizələrlə müraciətlər etmişəm, ancaq heç bir tədbir görülməyib.

Göyçay Suvarma Sistemləri İdarəsinin rəisi Şakir Əhmədovun korrupsiya əməlləri barədə mətbuatda tez-tez yazılar dərc olunur, faktlar göstərilir, ancaq adam barəsində heç bir tədbir görülmür.

Xahiş edirəm, mənim evimin yanından keçən arxın 100 (yüz) metr hissəsinin betonlanması üçün Azərbaycan Meliorasiya və Su Təsərrüfatı açıq səhmdar cəmiyyətinin sədri, cənab Zaur Mikayılova tapşırıq verəsiniz. Çünki Şakir Əhmədov mənim xahişimi nəzərə almır.

Mənim oğlum Orxan Vətən müharibəsində qazi olub. O, Suqovuşan, Ağdərə, Qubadlı uğrunda gdən döyüşlərdə iştirak edib. Kəşfiyyatçı olub, Ağdərə istiqamətində gedən döyüşlərdə ayağından yaralanıb, kontuziya alaraq komaya düşüb, 3 gündən sonra ayılıb. Mənim kimi vətəndaşların problemləri birincilər sırasında həll olunmalıdır. Lakin Göyçay Suvarma Sistemləri İdarəsinin rəisi Şakir Əhmədov bilərəkdən məni sizdən narazı salır, əks halda, mənim problemimi dərhal həll edərdi. Artıq mənim xahişimdən uzun müddət vaxt keçib, lakin yenə bir nəticə yoxdur.

**Cənab Prezident!**

Sizdən xahiş edirəm, göstərdiyim cinayət faktları obyektiv araşdırılıb, qanuna müvafiq tədbirlər görülməsinə və Şakir Əhmədovun məsüliyyətə cəlb edilməsinə tapşırıq verəsiniz”.

**Hazırladı: Jalə FAMİLQIZI**

***Redaksiyadan: Qarşı tərəfin mövqeyini dərc etməyə hazırıq.***

# Ucar sakinləri icra başçısından şikayətçidir

“Talançılıq yolu ilə milyonlara sahib olan Mənsur Məmmədovun gözü doymaq bilmir...”

**Ucar rayonunun Alpout kənd sakinləri - İsmayılov Kamran Etibar oğlu, Cəlilov Samir Əmir oğlu, Əliyev Fərhad Mövsüm oğlu, Məmmədov Bəhruz Mahir oğlu, Abbasov Mirzə Səhrab oğlu və Əliyev Kamil Nüsrət oğlu tərəfindən “Hürriyyət”in redaksiyasına şikayət məktubu daxil olub. Ucar rayon İcra Hakimiyyətinin başçısı Mənsur Məmmədovdan şikayət edən sakinlərin məktubunu olduğu kimi dərc edirik:**




“Mənsur Məmmədov ümumi istifadədə olan örüş yerini qanunsuz olaraq əkdirməklə kənd sakinlərinə ciddi ziyan vurub”

“Bu şikayətimizdə yazıb Sizə bildiririk ki, Ucar rayon İcra Hakimiyyəti başçısı Mənsur Məmmədov ümumi istifadədə olan örüş yerini qanunsuz olaraq əkdirməklə kənd sakinlərinə ciddi ziyan vurmuşdur. Belə ki, biz Ucar rayonu Alpout kənd sakinlərinin əsas məşğuliyyəti əkinçilik və heyvandarlıqdır. Ancaq ümumi istifadədə olan örüş yerlərimizdə qanunsuz olaraq əkin işləri aparılmışdır. Alpout kəndində “Bəy yeri” deyilən ərazidə 24 hektar örüş yerində icra başçısı Mənsur Məmmədov qanunsuz olaraq əkin işləri aparmışdır. Hansı ki, həmin 24 hektar torpaq sahəsinin təyinatı örüşdür. Kənd sakinləri həmişə orada iri və xırdabuynuzlu heyvanlarını otarıblar.

Talançılıq yolu ilə milyonlara sahib olmuş Mənsur Məmmədovun gözü doymaq bilmir. Ucar və Göyçay rayonlarında yüzlərlə hektar torpaq sahələrini qanunsuz ələ keçirən icra başçısı kənd sakinlərinə qənim kəsilib. İndi biz kənd sakinləri heyvanlarımızı otarmağa yer tapmırıq. Hətta məlumat almışıq ki, Mənsur Məmmədov Göyçay rayonunda icra başçısı vəzifəsində işləyən zaman həmin rayonun Çərəkə kəndində 60 hektar örüş torpağını qanunsuz qazdıraraq, balıq yetişdirmə gölü yaratmışdır. İcra başçısı Mənsur Məmmədova məxsus olan balıq gölünün biri isə Göyçay rayonunun Müskürlü kəndində yerləşir”.

Sakinlər bildirir ki, icra başçısı Mənsur Məmmədovun bütün kənd təsərrüfatı işlərini Ucar rayon Dövlət Aqrar İnkişaf Mərkəzinin direktoru Rəhman Səfərov aparır: “Rəhman Səfərov və İcra Hakimiyyətinin Araz adlı əməkdaşı hər səhər işə gəlmək əvəzinə, icra başçısına məxsus fermalara, əkin sahələrinə gedirlər.

Örüş torpağının əkin təyinatlı edilməsi üçün Nazirlər Kabinetinin qərarı olmalıdır. Belə bir qərar olmadan, bələdiyə və ya mülkiyyətçi ilə müqavilə bağlanılmadan, torpaqdan qanunsuz istifadə etmə cinayət əməli hesab edilir. Belə bir qanunsuz işi vəzifəli şəxs görərsə, həm də vəzifə səlahiyyətlərindən sui-istifadə cinayəti hesab olunur”.

Sonda qəzetimiz vasitəsi ilə Prezident İlham Əliyevə müraciət edən şikayətçilər yazırlar: “Çox xahiş edirik ki, şikayətimiz yerində, obyektiv yoxlama aparılmaqla, araşdırılıb cinayət törətmiş icra başçısı Mənsur Məmmədov barəsində qanuni tədbirlər görülsün”.

**Hazırladı: Jalə FAMİLQIZI**

***Redaksiyadan: Qarşı tərəfin mövqeyini dərc etməyə hazırıq.***

# Göyçayın Suvarma Sistemləri İdarəsinin rəisi haqqında şok iddialar

Şakir Əhmədov dövlətin külli miqdarda vəsaitini talan etməkdə ittiham olunur

**Göyçay rayonu, Bığır kənd sakini Hümbətov Asif Ataş oğlu tərəfindən “Hürriyyət” qəzetinin redaksiyasına şikayət məktubu daxil olub. Qəzetimiz vasitəsilə Prezident İlham Əliyevə, Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin sədri Zaur Mikayılova və Göyçay rayon İcra Hakimiyyətinin başçısı Natiq Ağayevə müraciət edən şikayətçi iddia edir ki, Göyçay rayon Suvarma Sistemləri İdarəsinin rəisi Şakir Əhmədov dövlətin ayırdığı vəsaiti təyinatı üzrə xərcləmədən talan etsə də, indiyə qədər onun barəsində qanuni tədbir görülmür:**




“Səbəb isə Şakir Əhmədovun talançılıqla əldə etdiyi pulun bir hissəsini yuxarı orqanlara xərcləməsidir. Beləliklə, Şakir Əhmədov dövlət əmlakını talamaqla öz cinayətinə özündən də yuxarı vəzifəli şəxsləri ortaq etmişdir. O, bu vəziyyətdən istifadə edərək, cinayət əməllərini davam etdirməkdədir. Nəticədə isə Göyçayın suvarma kanalları lildən, qamışdan təmizlənmədiyi üçün kənd təsərrüfatına ciddi ziyan dəyir.

Şakir Əhmədov dövlət mediasına müsahibə verib deyir ki, 6 ay ərzində 470 km uzunluğunda suvarma kanalları lildən, qamışdan təmizlənib. Ancaq, əslində bunlar sənədlər üzərinə yazılmış nağıllardır. 474 km kanalda lildən təmizləmə işlərini yoxlamaq lazımdır ki, necə təmizlik aparılıb. Hər bir metr kanala ən azından 1 manat xərclənəndə bu 474 000 (dörd yüz yetmiş dörd min) manat edir. Belə külli miqdarda dövlət vəsaiti xərclənib, kanallar necə lildən təmizlənib ki, əhali yenə istifadə etməyə su tapmır?!”

Şikayətçinin iddiasına əsasən, “Hunday” markalı ekskavatorlar şəxsi işlərə cəlb edilərək, hər gün Şakir Əhmədova pul qazandırır: “İdarə olunmayan avtomobillərə yanacaq yazılaraq, pulu silinir. Suvarma kanallarında olan qurğuların, ekskavatorların təmiri adı ilə pullar mənimsənilir. Staj xatirinə adı işdə, özləri uzaq ellərdə olan şəxslər var ki, maaş kartları Şakir Əhmədovun cibindədir.

Qarayazı beton kanalında əsaslı təmir zamanı dəmir armaturdan istifadə edilməyib. Ancaq kanalın təmir üçün tərtib edilmiş lahiyə smetasında betonlaşmada armaturdan istifadə edildiyi qeyd olunur. Bununla da Göyçay rayon Suvarma Sistemləri İdarəsinin müdiri Şakir Əhmədov dövlətin küllü miqdarda vəsaitini mənimsəmişdir. Onun uzun müddət idarədə rəhbər vəzifədə qalması dövlət adına ləkədir.

Şakir Əhmədov talançılıq yolu ilə əldə etdiyi kapital hesabına Göyçayda 5 mənzilə, 14 obyektə sahib olub. Bütün obyektləri icarəyə verib. Bakı şəhərində, Qəbələ və İsmayıllı rayonlarında mənzillər alıb, bahalı avtomobilləri ilə “göz qamaşdırır”.

Prezident İlham Əliyevdən, Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin sədri Zaur Mikayılovdan və Göyçay rayon İcra Hakimiyyətinin başçısı Natiq Ağayevdən xahiş edirik ki, şikayətdə qeyd edilən faktlar yerində yoxlanılsın və Şakir Əhmədovun barəsində hüquqi tədbirlər görülsün”.

**Jalə FAMİLQIZI**

***Redaksiyadan: Yazıda adları qeyd olunan qurumların və şəxslərin mövqeyini dərc etməyə hazırıq.***

# Ruslara inanmaq olarmı?



## "İt əl çəkdi, motal əl çəkmədi" - bu qədər rəzalətdən sonra da biz yenə Moskvaya boylanırıq



Firuz HAŞIMOV

**Müstəqilliyin əsas şərtlərindən biri keçmişin heç bir uydurmaya, saxtakarlığa yol vermədən dəqiq öyrənilməsidir. Azadlığa çıxmış xalqın gənc nəsli pis-yaxşı sələflər barədə dəqiq məlumatlara malik olmalıdır. O qövm, o xalq yoxdur ki, keçmişində utanc gətirən, faciəli, xatırlananda gözlər yaşardan məqamlar, vaqiələr olmasın. Məsələ onların necə şərh edilməsində, necə təqdim olunmasında, nəhayət, kimlərin bu barədə danışmaq hüququndan gedir. Vay o gündən ki, qələm satqın əlində olsun.**

Bəzi sadəlövhlər rusların bizlərə qarşı açıqdan-açığa namərd münasibətinə məəttəl qalırlar. Axı bizim bunlara bir pisliyimiz keçməyib. İki əsrdən çox vaxt ərzində yeraltı, yerüstü sərvətlərimizi demək olar ki, müftə daşıyıb apardılar. Rusiya cəmiyyətinin nə qədər tör-töküntüsü varsa hamısını Bakıya töküb. Bakıda kirayədə qalan rus yox idi. Beynəlmiləlçilik pərdəsi altında ruslaşma siyasəti elə məharətlə aparılıb ki, zavallı millət soyadlarının da dəyişilməsinə sakit-sakit dözüb.

...Qafqaz xalqlarının azadlıq uğrunda mübarizələrini qan içində boğan çar generallarına mədhiyyələr söyləyən Puşkinə heykəl qoyduq. Bu həmin Puşkindir ki, ağır vuruşdan sonra süqut etmiş Lənkəran qalasının yaralı fədailərini qırmış general Kotlyaverskini mədh etmişdi. Murtuz ağa Muxtarov kimi nəcib kişinin bağ evində bizim lakey xislətli hökumətimiz Yeseninin şərəfinə muzey açdı. Ölkənin ideoloji təhlükəsizliyi üçün cavabdeh olan hakim YAP-ın ədalı "analitikləri" bilirlərmi ki, Yesenin XI ordunun hissələri ilə Güney Azərbaycanda olanda hansı pəstahlardan çıxıb?! Bakını qana bələmiş "komissarların" şəninə şeir yazan bu macəraçı subyekt bir şair kimi bizim ən zəif qələm sahiblərindən də qat-qat aşağıda durur. Bunu, rus dilini rusun özündən də yaxşı bilən, mən deyirəm.

Yaxşı yadımdadır bir tədbir keçiriləndə Mərkəzi Komitənin əmri ilə ziyalıları Mərdəkana yığardılar, nitq irad edən kim, şeir deyən kim... Adam əlindən tərpənmək olmurdu... Sabir poeziya günü qeyd olunanda isə onun şəhərin ortasındakı heykəlinin yanında cəm olanları barmaqla saymaq olardı. Nəyi də olmasa, Moskva irticası əsarət altına aldığı xalqın gəncliyinə naqislik, natamamlıq hissini aşılamağı bacarırdı. Missionerlər öz yerində, amma əsas zərbə qüvvəsi seminariyalarda, universitetlərdə, gimnaziya və digər məktəblərdə rus dilində təhsil almış, savadlanmış gənclər idi. Ucsuz, bucaqsız imperiyanı nəzarətdə saxlamaq, idarə etmək üçün savadlı məmur təbəqəsi lazım idi. Rus üsuli-idarəsi məmurların azlığı ucbatından məcbur olub yerli camaatın imkanlı, varlı zümrəsinin övladlarını təhsil müəssisələrinin yaxınına buraxırdı. İndi baxırdı, o məktəblərin divarları arasından kim necə çıxırdı. Onların içində rejimə sidq-dillə inanıb qulluq edənlər də vardı, xalqının dadına çatmaq istəyənlər də. Xalqın isə ən mənfur düşmənləri onda da, indi də ruslaşmışlar idi, yəni birdəfəlik olaraq qövmünə, adət-ənənəsinə, mədəniyyətinə arxa çevirənlər.

Anatoliy Zöhrabbəyov Sovet hakimiyyəti dövründə tərtəmiz rus təhsili almışdı. Ondan tək bir roman, "Odlu diyar" qalıb. Əcəl qoymadı ki, o romanın ikinci hissəsini yazsın. Rizə-rizə doğransam da bu nakam gəncin misilsiz əsərini Süleyman Rəhimov Əli Vəliyev, Əbülhəsən, Bayram Bayramov, İlyas Əfəndiyev kimi sovet məddahlarının əsərləri ilə yanaşı qoymaram.

Rus pravoslav müstəmləkə üsul-idarəsinin niyyəti bəlli idi, manqurtların köməyi ilə sıravi azərbaycanlının beyninə yeridirdilər ki, onun kübarı zalım, əxlaqsız, din xadimi qaragüruhçu, kasıbı, yəni rəiyyəti Novruzəli, sənətkarı isə usta Zeynal kimi məxluqdur. Nicat yolu rus üsuli-idarəsi qarşısında səcdədə durub, onun salamatlığı üçün Allaha dua etməkdədir. Müsəlmanların həmişə başaşağı, xəcil durması, öz keçmişlərindən, adət-ənənələrindən utanmaları rus istibdadına əl verirdi. Bizim əksər maarifçilərimizin də ifrat dərəcədə "geriliyə, xurafata qarşı mübarizəsi" rus irticasının məkrli planlarına uyğun idi. İşdir şayəd bir ayıq, Avropada, ya da Rusiyanın özündə yaxşı təhsil almış azərbaycanlı çəm-xəm edib, anti-islam, anti-türk təbliğatı susdurmaq istəyəndə onu iki-üç, cümlə ilə yerində oturda bilirdilər. Yəni çox danışma sizdə baş verənlər barədə biz yox, özünüzün ziyalılarınız yazıb. Vəcdə gələndə daha o tərif yoxdur ki, M.F.Axundovun üzərinə yağdırmayaq.

> Rus pravoslav müstəmləkə üsul-idarəsinin niyyəti bəlli idi, manqurtların köməyi ilə sıravi azərbaycanlının beyninə yeridirdilər ki, onun kübarı zalım, əxlaqsız, din xadimi qaragüruhçu, kasıbı, yəni rəiyyəti Novruzəli, sənətkarı isə usta Zeynal kimi məxluqdur. Nicat yolu rus üsuli-idarəsi qarşısında səcdədə durub, onun salamatlığı üçün Allaha dua etməkdədir...

Amma bir bəni-Adəm soruşmur ki, niyə bu kişinin əsərlərində nəzir üçün axtarasan belə, bir müsbət personaj yoxdur. Onun sinəsindəki reqaliyalar adi dilmanca verilənlərdən deyil. Otuz il bundan əvvəl, mən opponentlərimin çıxışlarını yəqin edəndən sonra demişdim, məni söyməmişdən əvvəl, o kişinin sinəsini bəzəmiş orden və medalların statusunu, nə münasibətlə, kimlərə verilməsini dəqiq öyrənin, sonra üstümə gəlin. Mən isə bilirdim, amma nə onda, nə də indi bəzi əsrarları açmağa əlim gəlmir. İmkanlı müsəlman kişilərdən bir neçə arvad saxlamasını lağa qoyan bizim dost-doğma maarifçimiz məgər bilmirdi ki, rus kəndində bütün, bəli, bəli bütün qız-gəlinlər mülkədarın halal malı sayılırdılar. O kimi istəsəydi yatağına çəkə bilərdi və qızın, gəlinin atası, əri bunu özləri üçün başucalığı sayırdılar.

Zinakarlıqda rus kübarları dünyada bəlkə də lap birinci yerdədirlər. Bunu mən demirəm, özləri yazırlar. Bəzi məlumatları oxuyanda adam quruyub qalır. İmperiyanın güclənməsində müstəsna rol oynamış, ən yüksək titullara layiq görülmüş Qriqoriy Potyomkin doğma bacısının beş (!!) qızı ilə yaşayırmış. Bunu rus tarixçisi yazır, mən özümdən uydurmuram.

Məişətimizdə natəmizliyin olmasından ləzzət ala-ala yazan bizim bəzi maarifçilər görəsən I Pyotrın bu məşhur fərmanından xədərdar idilər? Bu məlumatı mən Şaşkovun 1896-cı ildə nəşr olunmuş "Rus qadınının tarixi" əsərindən götürmüşəm.

Fərmanda deyilir: "Hüzurumuza gələn əcnəbi elçilər, qonaqlar burada olan üfunətdən özlərini qoruya bilmirlər. Əmr edirəm, saraya gələn bütün qadınlar heç olmasa ayda bir dəfə çimsinlər. Əks təqdirdə heç nəyə məhəl qoyulmadan cəzalanacaqlar!"

Böyük şairimiz cəfakeş Sabirimizin təbirincə desək, "cühəla xabgahı" sayılan Şirvanın üç böyük yaşayış məskənində Şamaxıda, Basqalda və Lahıcda ona qədər hamam gecə-gündüz işləyirdi. Tarixi bilinməyən Lahıcın kanalizasiyası təmirsiz, qəzasız neçə qərinədir ki, işləyir. Məsəl var: "Evdəki sarsaq deməsə, çöldəki heyvan deməz!". İllər boyu hər əlində qələm tutan nəməkbəharam öz doğma xalqının üzərinə çirkab atmasaydı, nə rus, nə erməni, nə multani cürət edib ünvanımıza hərcayi-hərcayi danışmazdı.

# Bakının mərkəzində “TeaFond”a məxsus milyonluq obyekt necə ələ keçirilib?

## “Teafond” QTSC-nin direktoru Şamil Ağayev Teatr Xadimləri İttifaqının İdarə Heyətinin sədri Azərpaşa Nemətovu saxtakarlıqda ittiham edir...

29 dekabr 2006-cı ildə prezident İlham Əliyev 222-IIIQ saylı “Teatr və teatr haqqında Azərbaycan Respublikası Qanunu”nu imzalayıb. 98 maddəlik qanunda faktiki olaraq, milli teatrımızın inkişafı adına hər şey demokratik biçimdə öz yerindədir. Prezident İlham Əliyev 18 may 2009-cu il tarixdə “Azərbaycan teatrı 2009-2019-cu illərdə” Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında 277 saylı sərəncamı ilə mədəniyyətə və teatra verdiyi dəyəri daha da gücləndirib.



### Ölkənin “Ana Teatrı”nı kim bərbad hala salıb?

Azərbaycan Milli Teatrının siması Akademik Dövlət Dram Teatrı hesab olunur. Ancaq bu qocaman teatrın direktoru, bədii rəhbəri və baş rejissoru statusunu daşıyan Azərpaşa Nemətovun kəraməti sayəsində 145 illik böyük ənənələri olan Akademik Teatr “Kukla Teatrı”na çevrilib. Bunun səbəbi odur ki, Azərpaşa Nemətov uzun illər “Gənc Tamaşaçılar Teatrı”nda işləyib. Bu teatrın profili gənclər və uşaqlar üçün tamaşalar hazırlamaq olub. Halbuki, Akademik Teatrımız çağdaş teatrın estetik-fəlsəfi, sosial-ictimai xarakteri ilə zamanın ritmini irəli sürməlidir. Bu düşüncə ilə teatr prosesinə təkan verməlidir. Zamanın ritminin fəlsəfi baxımdan və şüuraltı qatlarının sosiumunu anlatmağı önə çəkməlidir. Bütün bunları Azərpaşa Nemətov bilmirsə, deməli Akademik Teatrındakı problem elə onun özüdür.

### Teatr Xadimləri İttifaqı və “Aktyorlar Evi” nədən boş məzarlığa çevrilib?

2003-cü ildə Azərpaşa Nemətov Azərbaycan teatrı və kinosunun müqtədir sənətkarı, xalq artisti Həsənağa Turabov dünyasını dəyişdikdən sonra, 1866-cı ildən fəaliyyət göstərən bu qocaman sənət ocağının, Teatr Xadimləri İttifaqının sədri vəzifəsinə keçdi. Elə bu dönəmdən başlayaraq, “Aktyorlar Evi”nin çırağı da söndü. Daha doğrusu “səssiz məzarlığa” çevrildi. Ona görə ki, Teatr Xadimləri İttifaqı və “Aktyorlar Evi”nə rəhbərlik edən Azərpaşa Nemətov və onun “komandası” istedadsız adamlardan ibarət idi. Onlar istedadlı rejissorlardan, dramaturqlardan və təbii ki, aktyorlardan çox qorxurlar. Bununla yanaşı, ölkə teatrlarının festivallarının keçirilməsi və mədəni mühitimiz üçün gərəkli olan digər addımlar da dolayı yolla yasaq edildi.

Əlbəttə, Azərpaşa Nemətov adını daşıyan vətəndaşla ilgili bizim hansısa bir sorunumuz yoxdur. Biz onun daşıdığı ictimai yükə uyğun olmadığını dilə gətiririk. Ona görə ki, hər bir xalqın mədəniyyətinin inkişafı həm də onun mədəni səviyyəsinin ölçüsü hesab olunur. Ortabab düşüncə tərzi ilə böyük sənət iddiasında bulunmaq hər zaman fəlakətlərin təməli sayılıb. Biz bu fəlakətləri gördüyümüz üçün Azərpaşa Nemətovu zaman-zaman tənqid etmişik. 20 ilə yaxındır Teatr Xadimləri İttifaqının sədri olduğu dönəmdə bircə dəfə də olsun teatr xadimlərinin problemləri ilə ilgilənməyib. O, bu qurumu da özünün biznes obyektinə çevirib. Halbuki, qanunla Teatr Xadimləri İttifaqına məxsus mülkiyyətin satılması, hədiyyə edilməsi və icarəyə verilməsi, eyni zamanda bu qurumun rəhbərliyinə təyinat ancaq qurultayın səlahiyyətindədir.

Ancaq Teatr Xadimləri İttifaqının (TXİ) əvvəllər idarə heyətinin sədri və bu gün ümumi rəhbərliyin sədri statusu ilə Azərpaşa Nemətov qanunsuzluq edərək qurumun fəaliyyətində çoxsaylı problemlərin yaranmasına səbəb olub. Belə ki, onun əməlindəki cinayət tərkibinə daxil olan məsələlərdən biri də “TeaFond”a məxsus olan əmlakı vaxtilə Bakı şəhəri Daşınmaz Əmlakın Reyestri Xidmətinin sabiq rəhbəri Arif Qaraşovla əlbir olaraq, “Muradlı” şirkətinə satıblar. Beləliklə, şəhərin mərkəzində dəyəri milyonlarla dollar olan 67 sot ərazi zəbt edilib. Axı “TeaFond” QTSC ləğv olunmayıb, Ədliyyə və keçmiş Vergilər Nazirliyində qeydiyyatı olan bir şirkətdir. Bununla yanaşı, şirkət gəlirindən hər ay dövlətə vergi ödəyir.

### Məhkəmənin ədalətsiz qərarı...

Bütün cinayətləri görən “Teafond” İKM-in rəhbərliyi hüquq pozuntusunun qarşısını almaq və öz əmlakına sahib çıxmaq üçün yenidən məhkəməyə müraciət edir. AR İqtisad Məhkəməsi hakimlər S.Seyidova, A. Hüseynov və R. Ataşovadan ibarət tərkibdə işə baxaraq “Teafond” İKM-nin iddiasını təmin edir. İqtisad Məhkəməsinin 5-6 fevral 1998-ci il tarixli 24/11-30 saylı qətnaməsi və xüsusi qərardadı ləğv edilərək “Teafond” QTSC-nın hüquqi statusunu bərpa edir. Bu qətnamədən sonra Bakı Şəhəri İHTİ və MHQİ TXİ-nə verdiyi 000588 saylı qeydiyyat vəsiqəsini ləğv etməli idi. Hakim S. Seyidova qeydiyyat vəsiqəsini ləğv etmək barədə idarənin rəisi Arif Qaraşova məktub göndərsə də qarşı tərəf əvvəlki qanunsuz əməllərini davam etdirərək hər şeyi qulaq ardına vurub. İqtisadi Məhkəməsinin qeyd edilən qətnaməsində göstərilir ki, 3 saylı dəyirman kompleksinin binası TXİ-nin deyil, “Teafond” QTSC-nin əmlakıdır. Beləliklə, TXİ- İH 8/1 saylı qərarı qəbul edərkən müstəqil hüquqi şəxs kimi “Teafond”-un hüququnu pozmuşdur. Baxmayaraq ki, TXİ 26 iyun 1996- cı il tarixli 01 saylı əqdlə 3 saylı dəyirman binasının “Teafond” İKM-yə məxsus olduğunu yazıb və möhürlə təsdiq edib. Qeydiyyatı bərpa olunan “Teafond” QTSC-nın rəhbərliyi TXİ-nə verilmiş QYM seriyalı 000588 saylı qeydiyyat vəsiqəsinin ləğv olunması, “Teafond” QTSC-nin 3 saylı dəyirman kompleksinə hüququnun tanınması, həmin mülkiyyət hüququnu təsdiq edən şəhadətnamə verilməsinin Tİ X və MHQİ-nin üzərinə qoyulması və TXİ-nin 3 saylı dəyirman kompleksindən çıxarılması barədə qərar çıxarılması iddiası ilə 1 saylı İqtisad Məhkəməsinə müraciət edir. Hakim Ülvi Mayilovun sədirliyi ilə keçən prosesdə qeyri-adi hadisə baş verir. Yerli məhkəmə 18 noyabr 2002-ci ildə çıxartdığı 1833/5-346 saylı qətnaməsinə əsasən Azərbaycan məhkəmələrinin tarixində ilk dəfə Ali Məhkəmənin qərarını ləğv edir. Beləliklə də məhkəmənin sifarişlə hərəkət etməsi faktı ortaya çıxır.

Ülvi Mayilov məhkəmədə kobud qanun pozuntusuna yol vermiş və məhkəmədə öz həllini tapmış Ali Məhkəmənin qərarı ilə təsdiq olunmuş və Ədliyyə Nazirliyində 2055 saylı Şəhadətnamə verildiyi gündən qüvvəyə minməsinə baxmayaraq hakim cavabdeh tərəfindən məhkəməyə təqdim olunmuş qarşılıqlı iddianı rədd etmək əvəzinə, vəzifəli şəxslərin sifarişlərini yerinə yetirib. Belə ki, Prezident Administrasiyası humanitar məsələlər şöbəsinin sabiq müdiri Fatma Abdullazadə hakim Ü. Mayilova zəng edərək ona təzyiq göstərib. Nəticədə Ü.Mayilov belə əcaib qətnamə çıxartmaq məcburiyyətində qalır. Onun çıxartdığı qətnamədə göstərilən bir sıra faktlar əslində iş materiallarında yoxdur.

> Ülvi Mayilov məhkəmədə kobud qanun pozuntusuna yol vermiş və məhkəmədə öz həllini tapmış Ali Məhkəmənin qərarı ilə təsdiq olunmuş və Ədliyyə Nazirliyində 2055 saylı Şəhadətnamə verildiyi gündən qüvvəyə minməsinə baxmayaraq hakim cavabdeh tərəfindən məhkəməyə təqdim olunmuş qarşılıqlı iddianı rədd etmək əvəzinə, vəzifəli şəxslərin sifarişlərini yerinə yetirib...

### Tarixi saxtakarlıq...

Qətnamədə qeyd edilir ki, həmin binanın dəyərini ödəmək üçün Az TXİ-nin müraciətinə əsasən keçmiş SSRİ TXİ tərəfindən vəsait ayrılmış, həmin vəsait Azərbaycan Teatr Xadimləri İttifaqının hesabına köçürmüş sonradan TXİ-nin hesabından guya “Teafond” İB hesabına köçürülmüşdür. Halbuki iş materiallarında bu faktları təsdiq edən heç bir sənəd yoxdur. Ü. Mayilov yazir ki, TXİ-nin sədrinin 12 noyabr 1990-ci il tarixli sərəncamı ilə “Teafond” İstehsalat Birliyinin hesabına köçürülmüşdür. Halbuki, iş materiallarında bu faktları təsdiq edən heç bir sənəd yoxdur. Ü. Mayilov yazır ki, TXİ sədrinin 12 noyabr 1990-ci il tarixli sərəncamı ilə “TeaFond” İB-nin hesabındakı həmin vəsaitdən 372.880 manat 12 dekabr 1990-cı il tarixli 60 saylı ödəniş tapşırığı ilə “Teafond” İB hesabından Taxıl Məhsulları Nazirliyinin hesabına ödənilib. Vəsait SSRİ TXİ tərəfindən deyil, keçmiş Oktyabr rayon bankından istehsalatı genişləndirmə fondundan köçürülüb. Hakim isə bir-birinə zidd qərar çıxarıb. Bundan başqa dəyirman binasının yerləşdiyi torpaq sahəsi 1990-cı ilin iyulunda 90/262 saylı aktla TXİ-yə təhvil verilmişdir. 10 oktyabr 1990-cı il tarixdə Az TXİ -nin adına inşaat pasportu verilmişdir. Amma hakim onu nəzərə almır ki, 90/262 saylı akt TXİ -yə 3 saylı dəyirman binasında Mədəniyyət Ticarət Mərkəzi yaratmaq üçün “Tikinti Pasportu” verilib. Bakı şəhər Baş Memarlıq İdarəsi pay torpağı ayırmaqla məşğul olmur. Belə hüquqa zidd qərardan narazı qalan “Teafond”QTSC-nın rəhbərliyi bir daha məhkəməyə müraciət edir. İqtisad Məhkəməsi iddiaya baxaraq 25 fevral 2003-cü ildə 758 A / II -220 saylı qətnamə qəbul edib. Hakimlər E. Nağıyeva, R. Ataşova və A. Hüseynovdan ibarət məhkəmə tərkibi bu dəfə də ciddi qanunsuzluqlara yol verib. İlk növbədə hakimlər əvvəlki prosesdə Ülvi Mayilovun buraxdığı səhvlərin iş materiallarında olub olmadığını araşdırmayıblar. İkincisi, prosesdə iştirak edən hakimlər “Teafond” QTSC ilə TXİ arasında davam edən əvvəlki məhkəmə baxışlarında da iştirak ediblər. Sədr E. Nağıyeva TXİ ilə “Teafond” İKM arasında baş verən 02 aprel 1998- ci il tarixli məhkəmə prosesində, Baş Prokurorluğun protestindən 29.09.1998-ci il tarixli İqtisad Məhkəməsinin Rəyasət Heyətində hakim R. Ataşova TXİ ilə “Teafond” QTSC arasında baş verən 07.03.2002-ci il tarixli məhkəmə prosesində, eləcə də A Hüseynov həmin prosesdə hakim kimi iştirak ediblər. Müasir Azərbaycan qanunvericiliyinə görə bir prosesdə iştirak edən hakimin aidiyyatı iş üzrə başa çatmış məsələyə yenidən baxmaq hüququ yoxdur. Buna baxmayaraq hakimlər E. Nağıyeva, R. Ataşova və A. Hüseynovdan ibarət tərkib prosesdə iştirak edərək “Teafond” QTSC-nin apellyasiya şikayətinin təmin edilməməsi və 1 saylı yerli İqtisad Məhkəməsinin 1833/5-346 saylı 18 noyabr 2002-ci il tarixli qətnaməsinin dəyişdirilmədən saxlanılması barədə qətnamə çıxarıblar. Göründüyü kimi hal-hazırda Ali məhkəmənin qüvvədə olan bir-birinə zidd iki qərarı var. Birinci qərarda hakimlər S. Seyidova, A. Hüseynov və Rəbiyyət Ataşova. Ziddiyyətdə olan qətnamədə hakimlər E. Nağıyeva, A. Hüseynov və R. Ataşova. Belə qətnamələr heç bir ölkədə yoxdur.



### Şamil Ağayev pozulmuş hüquqlarına görə məhkəmələrdə davasını davam etdirir

“Teafond” QTSC-nin direktoru Şamil Ağayevin dediyinə görə, Teatr Xadimləri İttifaqının sədri A.Nemətovun yol verdiyi qanun pozuntuları bununla bitmir: “Azərpaşa Nemətov mənim işdən çıxarılmağım haqda saxta sərəncam verib. 25 oktyabr 1994-cü il, 27 saylı sərəncamda göstərilir ki, guya mən öz ərizəmə əsasən işdən azad edilirəm. Əslində mən heç bir ərizə yazmamışam və indiyə qədər TXİ üzvü olaraq qalıram. A. Nemətov qanunsuz olaraq sədri olduğu təşkilatda işləməyən qohumları Arif, Sevil, Nərminə Nemətlovların təyyarə ilə gediş haqqını TXİ-nin hesabına ödəyib. Bu cinayətlərə hüquq mühafizə orqanları biganə qalmamalı və layiqli qiymət verməlidir. Çünki A. Nemətov mənim işdən çıxarılmağım barədə saxta sərəncam verməklə AR Əmək Məcəlləsini pozub. A. Nemətov həmçinin TXİ ilə “Natavan” firma mağazası arasında bağlanmış 28. 08. 1997- ci il tarixli müqavilənin şərtlərini pozduğuna görə ARCM - nin 172 və 194 -cü maddələri ilə onun özünə qarşı cinayət işi qaldırılmışdır. Bundan başqa, A. Nemətov Ali İqtisad Məhkəməsinə yazır ki, guya “Teafond” İKM-nin QTSC çevrilməsi barədə iclasda tamam başqa qərarlar qəbul edilib. QTSC-nın dövlət qeydiyyatından keçirilməsi üçün Ədliyyə Nazirliyinə müraciət məqsədi ilə iclas isə ümumiyyətlə olmayıb. Lakin Səbail rayon Prokurorluğunun apardığı araşdırma A. Nemətovun yalanını üzə çıxarıb”.

*(Ardı var)*

**“Hürriyyət”**

# Turan Birliyi iqtisadi təməllərlə necə qurulur?

## Türkiyə ağır tarixi imtahandan keçir...

**Görünən odur ki, əsas ideoloji bazası olan Turan Birliyi yeni formasiyada ortaya çıxaraq daha da möhkəmlənir. Belə ki, iqtisadi və hərbi əməkdaşlıq üzrə imzalanan saziş və müqavilələrdən sonra yaxın gələcəkdə Turan Birliyinin daha da gəlişəcəyi gözlənilləndir...**

Turan iqtisadi platforması indi daha çox müzakirə edilir. Türk Dövlətləri Təşkilatının Özbəkistan paytaxtı Səmərqənddə keçirilən sonuncu toplantısında mühim qərarlar verilib. Artıq 7 Türk dövləti bununla bağlı olaraq qərar verib. Eyni zamanda, Şimali Kipr Türk Cümhuriyyətini də müşahidəçi qismində təşkilata üzv qəbul edilib.

Və indi yeni bir düzəndə daha çox müzakirə edilən məsələ iqtisadi modellərin hansı formada təşkildir. Azərbaycan Türk dövlətlərinin iqtisadi bilriyində mühim tranzit və aprıcı ölkə rolunu oynayır.

Xüsusilə də Mərkəzi Asiya ilə Qərbi Avropa arasında Xəzər dənizi üzərindən qurulacaq logistik dəhliz məhz Bakıdan keçəcək. Hazırda Rəsmi Bakının əsas hədəfi Ələt Ticarət Limanında işləri yekunlaşdırmaqdan ibarətdir. Çünki bu Azərbaycanın Asiya ilə Avropa arasında əsas ticarət körpüsü rolunu oynamasında mühim əhəmiyyət kəsb edir. Rusiyanın Ukraynaya hərbi təcavüzündən sonra ÇİN əsas ixracatçı olaraq narazılıq edirdi ki, Bakı limanları daşınma üçün heç də əlverişli deyil. Xüsusilə də gömrükdəki inzibati problemlər və limanların ötürücülük qabiliyyətinin aşağı olmasından narazılıqlar var idi.

Hazırda istər Türkiyə, İstərsə də Rusiya üçün əsas prioritet olan məsələ quru yolu ilə Hindistana qədər uzanacaq Zəngəzur dəhlizinin açılmasıdır. Məhz Türkiyə üzərindən Avropa quru yolu ilə keçidin əsas parçası olan Zəngəzur dəhlizi formalaşarsa, o zaman Azərbaycan yenə də əsas iqtisadi fomrasiyanın mərkəzində olacaq.

"Hürriyyət"in araşdırma qrupu son Türk dövlətləri ilə ticarət münasibətlərini ifadə edən əsas iqtisadi göstəricilərə yetişə bilib. Rəsmi statistikaya əsasən, cari ilin yanvar-avqust ayları ərzində Azərbaycan ilə TDT arasında 4,6 milyard ABŞ dolları dəyərində xarici ticarət əməliyyatları həyata keçirilib.




Bu dəyər Azərbaycanın ümumi xarici ticarət dövriyyəsinin 13 faizidir. TDT-yə daxil olan ölkələr arasında Türkiyə Cümhuriyyəti 84 faiz ilə ilk sırada yer alır. Digər yerləri Qazaxıstan (8 faiz), Türkmənistan (5 faiz), Özbəkistan (3 faiz), Macarıstan və Tacikistan (birgə 1 faiz) tutur".

Əlbəttə ki, bu birtərəfli statistic məlumatlardır. Yəni eyni qaydada digər Türk dövlətlərindən də idxalat həyata keçirilir ki, bu konteksdən yanaşdıqda ümumi ticarət dövriyyəsinin həcmi artır. Təşkilatın qarşıya qoyduğu əsas hədəflərdən biri ondan ibarətdir ki, TDT üzv dövlətlər ikitərəfli və çoxtərəfli ticarət dövriyyəsini artırsınlar. Eyni zamanda enerjidaşıyıcıları ilə bağlı mərkəzi ötürücü marşrutların da formalaşdırılması hədəflənir.

Əlimizdə olan statistikaya əsasən, Türkiyə Cümhuriyyətinin siyahıda ilk sırada olması enerji ticarətinin dövriyyəsi ilə əlaqədardır. Habelə, Azərbaycanın enerji məhsulları ixracında Türkiyə TDT ölkələri arasında yüksək paya malik yegane dövlətdir. Azərbaycanın təbii qaz ixracının 17 faizi, xam neftin isə 1 faizi Türkiyə Cümhuriyyətinə ixrac olunur. Türkiyədən başqa TDT-də müşahidəçi ölkə rolunda çıxış edən Macarıstana 530 min dollar dəyərində neft məhsulu ixrac olunur ki, bu da ümumi ixracın yarısıdır. Türkiyə ilə Azərbaycan arasında qeyri-neft sektoru üzrə ticarət dövriyyəsi də yüksəlməkdədir. Azərbaycanın qeyri-neft ixracına liderlik edən pambıq və kimya sənayesi məhsullarının böyük hissəsi qardaş ölkəyə ixrac edilir.

Azərbaycanın, Macarıstan istisna olmaqla, digər Türk dövlətləri ilə azad ticarət sazişləri və Türkiyə ilə preferensial ticarət sazişi mövcuddur.

Son məlumatlara əsasən, yaxın zamanlarda təşkilata üzv olan dövlətlər kimi Macarıstanla da azad ticarət münasibətlərinin qurulması istriamətində addımlar atıla bilər. Lakiin bunun üçün əsas olan məqam Avropa Birliyi dövlətləri ilə ikitərəfli sazişlərin ratifikasiyasına ehtiyac var.

Bununla belə rəsmi məlumatlara əsasən Türkiyə və Macarıstan Türk Dövlətləri Təşkilatı arasında Azərbaycan iqtisadiyyatına birbaşa xarici investisiya yatıran əsas ölkələr sırasındadır. Belə ki, bu ilin ilk 6 ayı ərzində Türkiyə Azərbaycan iqtisadiyyatına 480,8 milyon, Macarıstan 5,1 milyon, Qazaxıstan isə 3,5 milyon dollar birbaşa xarici sərmayə yatırıb.

Azərbaycanlı investorlar tərəfindən isə Türkiyəyə 59,7 milyon dollar və Özbəkistan iqtisadiyyatına isə 8 milyon dollar investisiya qoyulub.

Hazırda Qazaxıstanla, Özbəkistan və Türkmənistanla da 2023-cü il üçün əsas investitisiya qoyuluşlarına yönəlik addımlar planlanır. Azərbaycan prezidentinin Qazaxıstan və Özbəkistana səfərlərio zamanı mühim sənədlər imzalanıb. Görünən odur ki, əsas ideoloji bazası olan Turan Birliyi yeni formasiyada ortaya çıxaraq daha da möhkəmlənir. Belə ki, iqtisadi və hərbi əməkdaşlıq üzrə imzalanan saziş və müqavilələrdən sonra yaxın gələcəkdə Turan Birliyinin daha da gəlişəcəyi gözləniləndir.

Nəhayət son olaraq qeyd etməyi vacib bildiyimiz bir məqam var. İndi bəzi dilletant siyasi şərhçilər və ya düşmən mövqedə olanlar Turan Birliyi ideyasını hansısa müstəqil dövlətlərin birləşməsi, hansısa məcburi birliyin yaranması və sair kimi təqdim edirlər. Lakin dünyada bu formatda olan, müstəqilliklərini də itirmədən formalaşmış və ya fopmalaşdırılmış bilriklər mövcuddur. Əsasən də hərbi və iqtisadi olaraq qurulan NATO və Avropa İttifaqını göstərmək mümkündür. Bu baxımdan da Türk dövlətlərinin Turan Birliyi qurma arzuları əslində təbii və daha çox real görünür. Çünki ortada olan təhdidlərin ünvanları, paytaxtları 7 müstəqil Türk dövlətinin hər birinə yönəlib.

**Razi ABASBƏYLİ**

# İran Azərbaycana yenidən nota verdi

## Tehran: "Heç kim səbrimiz zəiflik kimi qəbul etməsin..."

**"Heç kim İranın səbrini zəiflik kimi qəbul etməməlidir. Region ölkələrinin tarixi məlumdur. Bizim siyasətimiz xüsusən Azərbaycan dövləti və xalqı ilə mehriban qonşuluq, dostluq və qardaşlıq əlaqələrini qoruyub saxlamaqdır".**

Bu fikirlər İran İslam Respublikasının Xarici İşlər Nazirliyinin noyabrın 14-də Azərbaycana verdiyi notada əks olunub.

Nazirliyin bəyanatında deyilir ki, regiondan kənar əllərin İranın bəzi qonşuları ilə əlaqələrini pozmağa çalışması şübhəsizdir: "Ümid edirik, qonşuluqdakı dostlarımız başqa ölkələrin daxili işinə qarışmamaq siyasətindən çıxış edəcəklər".

Noyabrın 11-də Azərbaycanın İrandakı səfiri Əli Əlizadə Xarici İşlər Nazirliyinə çağırılmışdı.

Səfirin XİN-ə çağrılmasına səbəb kimi Azərbaycan mediasında İran əleyhinə təbliğatın aparılması göstərilmişdi.

Elə həmin gün İran İslam Respublikasının Azərbaycandakı səfiri Seyid Abbas Musəvi Azərbaycanın Xarici İşlər Nazirliyinə çağırılmışdı.

Azərbaycan Respublikasının
Medianın İnkişafı Agentliyi

## İctimai və dövlət maraqlarının müdafiəsi

**Bu gün artıq heç kimə sirr deyil ki, özünü İslam dövləti adlandıran İran, daha dəqiq desək, fars-molla rejimi nəyin bahasına olursa-olsun Azərbaycanı öz təsir dairəsinə almağa çalışır. Bunun onların çoxdankı arzusu olduğu da hamıya, ən azından prosesləri diqqətlə izləyən və molla rejiminin siyasətini düzgün təhlil etməyi bacaranlara bəllidir.**



mə qərarı ilə həbs qətimkan tədbiri seçilməklə beynəlxalq axtarışa verilmiş, hazırda İranda gizlənən Məmmədov Orxan Kəmran oğlunun Azərbaycan Respublikasının dövlət təhlükəsizliyi və müdafiə qabiliyyətinin zərərinə verdiyi tapşırıqların yerinə yetirilməsi istiqamətində fəaliyyət göstərərək hərbi təyinatlı obyektlərin yerləşdiyi əraziləri dəqiqləşdirməklə onların lokasiyasını və digər məlumatları Teleqram tətbiqi sistemi vasitəsilə sonuncuya göndərib.

Qeyd edək ki, məhz buna görə də Azərbaycan Respublikasının vətəndaşları Zahir Əsgərov, Elnur Rəsulov, Arif Rəsulov, Mirhafiz Cəfərzadə və Bəxtiyar Ağazadə Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 274-cü (dövlətə xəyanət) maddəsi ilə cinayət məsuliyyətinə cəlb edilərək həbs olunub. Araşdırmalar zamanı İran xüsusi xidmət orqanının

# Türk dünyasına düşm
# parçalamağa çalışan fars

## "İranın ölkəmizdə səfirliyi casus şəbəkəsinin idarə edilməsinin və silahlı terrorçu qrupların əsas mərkəzi olub"

Belə ki, daim türkə, Türk dünyasına düşmən gözü ilə baxan fars rejimi hər zaman ölkəmizi parçalamağa, Azərbaycan vətəndaşları arasında nifaq salmağa və bunu məhz İslam pərdəsi altında gerçəkləşdirməyə can atır. Son proseslər də bir daha sübuta yetirir ki, ağlı başında olan birisinin bunu inkar etməsi mümkün deyil.

### İranın Azərbaycandakı casus şəbəkəsinin yaxalanan 5 üzvü görün, nələr edib...

Şükürlər olsun ki, bu gün Azərbaycanın milli təhlükəsizliyinə qarant olan qurumlar, hüquq-mühafizə orqanları lazımı anda zəruri addımlar atmaqdan çəkinmir, bu cür qüvvələrin ölkəmizdəki əlaltılarına qarşı daim layiqli cavab verir, onların mənfur əməllərini ifşa edib planlarını iflasa uğradırlar. Məsələn, Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) yaydığı son məlumatda deyilir ki, İran İslam Respublikası xüsusi xidmət orqanları nümayəndələrinin Azərbaycan Respublikasına qarşı həyata keçirdiyi kəşfiyyat-pozuculuq fəaliyyətinin qarşısının alınması, yaradılmış casus şəbəkəsinin ifşa olunması istiqamətində DTX tərəfindən həyata keçirilmiş tədbirlər nəticəsində müəyyən edilib ki, Xəzər Dəniz Neft Donanmasında gəmi kapitanı vəzifəsində işləyən Zahir Fəxrəddin oğlu Əsgərov İranın Qum şəhərində dini təhsil aldığı müddətdə maddi maraq müqabilində adıçəkilən ölkənin xüsusi xidmət orqanı nümayəndələri tərəfindən məxfi əməkdaşlığa cəlb edilib. Belə ki, o, ötən dövr ərzində onların tapşırığı ilə Azərbaycan Respublikasının suverenliyi və müdafiə qabiliyyətinin zərərinə istifadə etmək üçün xarici dövlətlərin ölkəmizdə fəaliyyət göstərən şirkət və nümayəndəlikləri, Xəzər dənizində Hərbi Dəniz Qüvvələrinin keçirdiyi təlimlərin yeri və vaxtı, neft platformalarına daşınan yüklər barədə məlumatlar toplayıb. Zahir Əsgərov sözügedən məlumatları mobil telefon vasitəsilə, eləcə də İranda həmin şəxslərlə görüşlər zamanı bilavasitə təqdim etməklə casusluq formasında dövlətə xəyanət edib.

Başqa bir araşdırma ilə müəyyən edilib ki, Elnur Akif oğlu Rəsulov 2018-ci ildə müalicə məqsədilə İranda olarkən orada özünü "Meyse" və "Doktor" adları altında təqdim edən bu ölkənin xüsusi xidmət orqanı nümayəndələri ilə məxfi əməkdaşlığa barədə sövdələşib. Elnur Rəsulov əvvəlcə bilavasitə, daha sonra məxfi əməkdaşlığa cəlb etdiyi qohumu Rəsulov Arif Əmrah oğlu ilə birlikdə müxtəlif məbləğlərdə ödəniş qarşılığında verilən tapşırıqları icra edərək Bakı şəhəri Qaradağ rayonunda neft və qaz boru kəmərlərinin keçdiyi ərazilərin, hava limanlarında saxlanılan Müdafiə Nazirliyi və Dövlət Sərhəd Xidmətinə aid pilotsuz uçuş aparatlarının, tankların və müxtəlif hərbi avadanlıqların olduğu ərazinin, Bakı şəhərində "Texnofest" Aviasiya, Kosmik və Texnologiya festivalında nümayiş etdirilmiş texnikaların, Bakıda, həmçinin Salyan və Füzuli rayonlarında yerləşən strateji və hərbi obyektlərin, zenit-raket komplekslərinin, eləcə də digər radarnəzarət qurğularının fotoşəkillərini və videoçəkilişlərini Vatsap ani mesajlaşma sistemi vasitəsilə xüsusi xidmət orqanının nümayəndəsinə göndərib.

Eyni zamanda müəyyənləşdirilmişdir ki, digər Azərbaycan Respublikası vətəndaşı Ağazadə Bəxtiyar Rafiq oğlu dini təhsil almaq üçün İran İslam Respublikasında olarkən orada həmin ölkənin xüsusi xidmət orqanının nümayəndələri ilə maddi maraq müqabilində məxfi əməkdaşlığa başlamış, onların tapşırığı ilə xarici dövlətlərin Azərbaycanda fəaliyyət göstərən nümayəndəlikləri, ölkədə baş verən ictimai-siyasi proseslər, hərbi hissələr, onların yerləşdiyi yerlər və təyinatları, o cümlədən komanda heyəti barədə əldə etdiyi məlumatları toplayaraq İran xüsusi xidmət orqanına verməklə dövlətə xəyanət etməsinə dair əsaslı şübhələr yaranıb. Həmçinin müəyyən edilmişdir ki, Cəfərzadə Mirhafiz Mirisaq oğlu İran xüsusi xidmət orqanlarının nəzarəti altında törətdiyi cinayət əməllərinə görə 2018-ci ildən barəsində məhkə-



Məhəmməd Əsədullazadə: "Azərbaycanın hərbi, siyasi və iqtisadi inkişafı İran rejimini, fars millətçilərini ciddi şəkildə narahat edir"



Elxan Şahinoğlu: "İlham Əliyevin İranla və Güney Azərbaycandakı soydaşlarımızla bağlı son açıqlamaları Tehran rejimini silkələyib"



İlqar Altay: "Azərbaycanın İranla 30 illik münasibətlərdə yeni, inqilabi dönüş başlanır"



Osman Gündüz: "Güman etmək olar ki, İranın son zamanlar ölkəmizin əleyhinə təhdidlərinin artmasından, sərhəddə hərbi təlimlər keçməsindən sonra Azərbaycana qarşı işləyən casus şəbəkə də aktivləşib"

tapşırığı əsasında fəaliyyət göstərən, barələrində olan cinayət işləri üzrə məsuliyyətdən yayınaraq İranda gizlənən Tohid İbrahimbəyli, Orxan Məmmədov, Elşad Hacıyev və digərləri tərəfindən təsir dairəsində saxlanılan Azərbaycan vətəndaşlarının üzv kimi cəlb edildiyi "Müzakirələr", "Elanlar" və digər adlar altında Vatsap tətbiqində yaradılmış qapalı qruplar ifşa edilib. Məlum olmuşdur ki, bu qruplar vasitəsilə müasir beynəlxalq hüquqla tanınan insan hüquqlarına, Azərbaycan Respublikasının Konstitusiyasına zidd, Azərbaycanda dini dövlətin

# ...nən kəsilən, ölkəmizi ...s-molla rejiminin ifşası...



yaradılmasına hesablanan radikal, dini-ekstremist ideyaların yayılması həyata keçirilib. Hazırda Dövlət Təhlükəsizliyi Xidmətində kompleks istintaq-əməliyyat tədbirləri davam etdirilir.

### “Azərbaycan vətəndaşlarının İranda dini təhsil almaları qanunla qadağan olunmalıdır”

Beləliklə, bütün bunlar bir daha onu deməyə əsas verir ki, qarı düşməndən dost olmadığı kimi İrandan da Azərbaycana mehriban qonşu, din qardaşı olan deyil. Mövzuya təxminən, bu kontekstdən yanaşan Cənubi Qafqaz Təhlükəsizlik və Sülh İnstitutunun sədri, Milli Cəbhə Partiyasının sədr müavini, politoloq Məhəmməd Əsədullazadə ”Hürriyyət”ə açıqlamasında bildirib ki, İranın Azərbaycana yönəlik siyasətinin təməlində düşmənçilik faktoru var və bu, heç də yeni deyil: ”Düşünürəm ki, İranın ölkəmizə qarşı sərgilədiyi siyasət bundan sonra da davam edəcək. İran uzun illərdən bəri tarixi Azərbaycan torpaqlarının böyük bir hissəsini işğalda saxlayır, 40 milyondan artıq soydaşımızın bütün təməl hüquqlarını pozur. Onu da qeyd edim ki, Azərbaycan Respublikasının hərbi, siyasi və iqtisadi inkişafı İran rejimini, fars millətçilərini ciddi şəkildə narahat edir və bu, onlar üçün qorxulu yuxudur. Buna görə də fars rekimi din, məzhəb adı altında ölkəmizdə terrorizm fəaliyyətini davam etdirəcək. Məhz bu səbəbdən də Azərbaycan vətəndaşlarının İranda dini təhsil almaları qanunla qadağan olunmalıdır. Həmçinin, Cənubi Azərbaycan bizim üçün strateji xətt olmalı, oradakı soydaşlarımıza yüksək səviyyədə dəstəyi davam etdirməliyik. Bununla yanaşı, Mahmud Çöhrəqanlı başda olmaqla, xaricdə yaşamağa məcbur olan güneyli soydaşlarımız Bakıya dəvət edilməlidir. Zəngəzur dəhlizi bizim üçün nə qədər önəmlidirsə, Cənubi Azərbaycan ondan daha önəmlidir”.

### “Aydın şəkildə görünür ki, İran Ermənistanın həyata keçirdiyi kimi, bütün istiqamətlərdə Azərbaycana qarşı düşmənçilik siyasəti aparır”

Cənubi Qafqaz Təhlükəsizlik və Sülh İnstitutunun sədrinin fikrincə, bundan sonra İran-Azərbaycan əlaqələri hamar olmayacaq: ”Təbii ki, bu düşmənçiliyi İran ortaya qoydu. Rəsmi Tehranın Ermənistana dəstək verməsinə gəldikdə isə deyə bilərəm ki, İrəvan yaxın perspektivdə İrana arxa çevirəcək. Çünki Qərbin İrana qarşı sanksiyaları genişlənir. Odur ki, Qərb Ermənistandan İranla layihələrdən çəkinməyi tələb edəcək”.

İranın uzun illərdir Qum şəhərində Azərbaycana qarşı casuslar yetişdirdiyini deyən Milli Cəbhə Partiyasının sədr müavininin qənaətincə, ölkəmizdə fars rejiminin casus şəbəkəsinin ifşası onu göstərir ki, İran Azərbaycana qarşı Ermənistanın həyata keçirdiyi düşmən siyasəti ilə eyni hərəkət edir: ”İranın ölkəmizdə səfirliyi casus şəbəkəsinin idarə edilməsinin və silahlı terrorçu qrupların əsas mərkəzi olub. Aydın şəkildə görünür ki, İran bütün istiqamətlərdə Azərbaycana qarşı düşmənçilik siyasəti aparır. Fars rejiminin əsas məqsədi ölkəmizdə silahlı terror aktları həyata keçirməklə, siyasi hakimiyyəti devirmək olub. Qeyd edim ki, ölkəmizdə təkcə İranın deyil, Rusiyanın da agentura şəbəkəsinin olduğu bildirilir. Onların həbs edilməsi zamanı da gələcək. Çünki uzun illər Rusiya və İran ölkəmizdə casus şəbəkəsi qurub və onları kifayət qədər gücləndirib”.

### “Mitinq və küçə yürüşlərində həbs olunanlara ölüm cəzası təklif edən parlamentin Gülüstan müqaviləsi haqqında danışması gülüncdür, ümumiyyətlə, İran rejiminə qulluq edənlər inkarçıdırlar”

”Atlas” Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu isə bu qənaətdədir ki, Prezident İlham Əliyevin İranla və Güney Azərbaycandakı soydaşlarımızla bağlı son açıqlamaları Tehran rejimini silkələyib: ”İran parlamentində rejimə bağlı bir qrup millət vəkili İlham Əliyevi və Azərbaycanı hədəf alan açıqlamalar veriblər. İçərilərində bəziləri köhnə nağılı təkrarlayıblar: ”Gülüstan müqaviləsinə görə Azərbaycan İrandan ayrılıb”. Mitinq və küçə yürüşlərində həbs olunanlara ölüm cəzası təklif edən parlamentin Gülüstan müqaviləsi haqqında danışması gülüncdür. Ümumiyyətlə, İran rejiminə qulluq edənlər inkarçıdırlar. İran Rusiyaya Ukraynanı bombalamaq üçün dronlar verir, yalandan deyirlər ki, ”verməmişik”, İran maşınları Qarabağa qanunsuz yüklər daşıyırdılar, deyirdilər ki, ”belə bir şey olmayıb”, imkanları olsa Urmiya gölünün qurumadığını da söyləyərlər”.

### “İranın Azərbaycan üzərindəki təsir və təhdid siyasəti dövrünə son verilir və tarixin zibilliyinə atılır”

ABŞ-ın İran təhdidinə qarşı Azərbaycanın yanında olduğunu deyən İctimai Tədqiqatlar Mərkəzinin rəhbəri, tanınmış hüquqşünas İlqar Altay isə qeyd edib ki, bugünlərdə Dövlət Departamenti sözçüsü Ned Prays da məhz bunu təsdiqləyib: ”Belə ki, ABŞ Dövlət Departamenti sözçüsü ”İran Azərbaycan kimi qonşu ölkələrə qarşı öz ritorikasını gücləndirir. Onlar son vaxtlar Bakını hədələyir. Azərbaycanı İran ərazisində hansısa terror aktı törətməkdə ittiham edən bəyanatlar da hazırlanıb”, deyə bildirib. ”Azərbaycanı İran həmlələrindən müdafiədə dəstəyə hazırsınızmı” sualına cavabında isə Ned Prays ”Bu həftənin əvvəli azərbaycanlı həmkarlar ilə görüş imkanımız olub. İranın region üçün açıq təhlükə olduğunu bildirdik. Biz tərəfdaşlarımız yanında olmaq, onları dəstəkləməyə, nəticədə İranın regionda və bəlkə də regiondan kənarda yürütdüyü təcavüzkar siyasətə qarşı tədbirlər görməyə hazırıq və bu yönlü davam edəcəyik”, deyə vurğulayıb. Odur ki, Avropa Birliyinin, Türk Birliyinin, qardaş Türkiyə və yaxın dost İsrailin də bu məsələdə tamamilə Azərbaycanın yanında olduğunu nəzərə alsaq, İranla 30 illik münasibətlərdə demək olar ki, yeni, inqilabi dönüş başlanır. Yəni, 90-cı illərin əvvəli, Rusiya-İran-Ermənistan üçlüyünün birləşərək Azərbaycanı tələyə salıb, işğala uğradıb zəif və sıxıntılı duruma saldığı çətin andan bəri, İranın Azərbaycan üzərindəki təsir və təhdid siyasəti dövrünə son verilir və tarixin zibilliyinə atılır”. İlqar Altay hesab edir ki, bu gün Azərbaycanın hərbi gücü, dövlət möhkəmliyi və xalq birliyi, o cümlədən regional və beynəlxalq dəstəyi İrana qarşı durmağa bəs edir: ”Üstəlik, Azərbaycanın, onun milli vətənpərvər xalqının İrandakı soydaşlarımızın azadlığı üçün dəstək gücü də kifayət qədərdir. İran molla rejimi bu neçə illər Azərbaycana və eynilə də nahəng Güneyli milli toplumumuza, Təbrizə qarşı etdiyi pisliklərin qarşılığını almalıdır”.

> ABŞ-ın İran təhdidinə qarşı Azərbaycanın yanında olduğunu deyən İctimai Tədqiqatlar Mərkəzinin rəhbəri, tanınmış hüquqşünas İlqar Altay isə qeyd edib ki, bugünlərdə Dövlət Departamenti sözçüsü Ned Prays da məhz bunu təsdiqləyib...

### “Bu əməliyyat İran və Azərbaycan arasındakı dövlətlərarası münasibətlərə ciddi təsir edə biləcək səviyyədə hadisədir”

Dövlət Təhlükəsizliyi Xidmətinin uğurlu əks-kəşfiyyat əməliyyatı həyata keçirdiyini vurğulayan ”Multimedia” İnformasiya Sistemləri Texnologiyaları Mərkəzinin direktoru, Azərbaycan İnternet Forumunun prezidenti Osman Gündüz isə bildirib ki, DTX-nın bir əməliyyatla İranın ölkəmizə qarşı casusluq edən 5 əməkdaşının ifşa olunması istiqamətindəki fəaliyyəti ciddi, sistemli və uzunmüddətli işin nəticəsi olaraq dəyərləndirilə bilər: ”Fikrimcə, bu əməliyyat, hətta İran və Azərbaycan arasındakı dövlətlərarası münasibətlərə ciddi təsir edə biləcək səviyyədə hadisədir. Artıq görünən odur ki, qonşu İranın xüsusi xidməti açıq-aşkar Azərbaycan əleyhinə casus şəbəkəsi formalaşdırıb və özünün kəşfiyyat maraqlarını həyata keçirir. Bu tip hərəkətlər son zamanlar hətta sosial mediada açıq fəaliyyət göstərən bəzi iranpərəstlərin də çıxışlarından görsənir. Güman etmək olar ki, İranın son zamanlar ölkəmizin əleyhinə təhdidlərinin artmasından, sərhəddə hərbi təlimlər keçməsindən sonra Azərbaycana qarşı işləyən casus şəbəkə də aktivləşib”.

Osman Gündüzün fikrincə, DTX-nın bununla bağlı açıqlamasında diqqət cəlb edən həm də bu agentura şəbəkəsinin topladığı məlumatları Telegram və WhatsApp kimi sosial media resurslarından istifadə etməklə ötürməsidir: ”Maraqlıdır ki, bu agentura şəbəkəsi daha təhlükəsiz olan Signal-dan deyil, FETÖ şəbəkəsinin istifadə etdiyi ByLock tipli mesencerlərdən deyil, daha adi olan sosial resurslardan istifadə edib. Güman ki, artıq DTX Meta şirkətinə və Telegram-ın ofislərinə cinayət məsuliyyətinə cəlb olunanlarla bağlı əlavə məlumatların verilməsi üçün müraciət edib. Bu qlobal resurslar beynəlxalq normalara görə cinayət işi başlananlarla bağlı əsaslandırılmış sorğular daxil olduqda məlumatları təqdim etməyə borcludur. Amma adətən bu tip qlobal şirkətlərdə ikili standartlar da olur. Odur ki, ofşorda yerləşən Telegram-ın casuslarla bağlı məlumatları Azərbaycan tərəfinə verəcəyi inandırıcı görsənməsə də, düşünürəm ki, Meta şirkətindən WhatsApp istifadəçisi olan casus şəbəkə üzvləri haqqında məlumatları əldə etmək olar”.

**Vazeh BƏHRAMOĞLU**



Akif ƏLİYEV

# Talıbovun erməni ortağı...

## Yaxud daha çox qazanmaq üçün dövlət marağını satanlara nə ad vermək olar?

**Naxçıvan Muxtar Respublikası (MR) Ali Məclisinin sədri Vasif Talıbovun oğlu Rza haqqında mətbuatda şok informasiya yayılıb. Ovqat.com saytı yazır ki, Naxçıvan-Moskva təyyarə reysini işlədən və Rza Talıbovun qeyri-rəsmi şəriki olduğu "Utair" şirkətinin sahibi Andrey Martirosov erməni imiş. İddia olunur ki, onun əvvəlki familiyası Martirosyan olub. Bir neçə il əvvəl soyadındakı "yan" şəkilçisini "ov"la əvəzləyən Andrey, bununla, Azərbaycanda sərbəst biznes fəaliyyəti ilə məşğul ola bilib.**

Sayt yazır ki, Andrey Martiros(yan)ovun Azərbaycandakı rəsmi təmsilçi Zakif İsbatov adlı şəxdir: "O, Naxçıvan Beynəlxalq Hava Limanının direktoru Gülməmmədli Məşhur Abdulla oğlu ilə əlbir olub real qiyməti 280 manat olan təyyarə biletlərini müştəriyə 450 manata satır. Hər bilet satışından əldə olunan gəlirin cəmi 20-30 manatını (ayda 5000 manat rüşvət) Gülməmmədli Məşhura verən Zakif İsbatov yerdə qalan vəsaiti erməni patronuna göndərir və bunun müqabilində faiz alır".

Əlbəttə, bu məlumatın indiki ərəfədə yayılması heç də təsadüf deyil. Çünki, mətbuatın yazdığına görə, Vasif Talıbovun "qələmi qırılıb" və onun tezliklə vəzifədən uzaqlaşdırılacağı istisna deyil. Hətta hazırda təhvil-təslim prosesinin getdiyini idda edənlər də var.

Görünür, V.Talıbovun kreslosu laxladığından, onun və ailə üzvlərinin qanunsuz əməlləri məqsədli şəkildə mətbuta ötürülür ki, Naxçıvanı talıbovların zülmündən daha tez xilas etmək mümkün olsun.

Şübhə yoxdur ki, deyilənlər öz təsdiqini tapsa, "Talıbov klanı"nı haqda daha ciddi faktların şahidi olacağıq. Ən azı ona görə ki, Vasif Talıbovun uzun illərdir Naxçıvana rəhbərlik etdiyi dönəmdə özünün və ailəsini hər bir fərdinin qanunsuz yollarla sahib olduqları milyonları onlara "yedirtmək olmaz". Çünki bu pullar təkcə Naxçıvanın gələcək rəhbərliyi üçün deyil, ümumilikdə Azərbaycanda sabitliyin pozulması üçün ciddi təhlükəyə çevrilə bilər. Xüsusən də Vasif Talıbovun öz postunu qorumaq üçün İranla separat danışıqlara getdiyi haqda informasiyaların yayıldığı indiki ərəfədə, onun sahib olduğu kapitalı nəzarətsiz buraxmaq yanlış olar. Bu baxımdan, V.Talıbovun, eləcə də onun yaxın ətrafının sahib olduğu vəsaitin həcmi müəyyənləşdirildikdən, yəni qeyd olunan təhvil-təslim prosesi yekunlaşdıqdan sonra, Naxçıvanın sözün bütün mənasında azadlığa qovuşdurulacağı istisna deyil.

Təbii ki, təkcə Vasif Talıbovun deyil, Azərbaycanda uzun illər vəzifədə olan əksər məmurların qanunsuz yollarla böyük sərvət əldə etdiyi kimsəyə sirr deyil. Lakin bu gün bizi düşündürən daha ciddi bir məsələ var. Tutaq ki, hansısa məmurlar rüşvət və korrupsiya yolu ilə xalqın malını talamağı özünə ar bilmir. Bəs, tarixən xalqımıza qarşı amansız işgəncələrə imza atan, uşaq, qoca demədən dinc sakinlərimizi məhv edən, əsir götürdükləri qız-gəlinlərimizin başına olmazın oyunlar açan bir millətin nümayəndəsi ilə ortaq biznes qurmağa nə ad vermək olar? Ümumiyyətlə, daha çox sərvət toplamaq üçün dövlət marağını düşmənə satanların cəzası nə olmalıdır?...

# "Kamran Əliyev Rusiya səfirliyini aldadıb"

## Böyükağa Abdullayev: "Bütün qanunsuz hərəkətlərin başında Baş prokurorun durduğunu təkcə biz demirik..."

**Bakı şəhəri, Nizami küçəsi 53, mənzil 41-də yaşayan Abdullayev Böyükağa Abdulla oğlunun şikayəti əsasında "Hürriyyət"də "Bütün qanunsuz hərəkətlərin başında Kamran Əliyevin özü dayanır" sərlövhəli yazı dərc etmişdik. Rusiya Fedarasiyasının vətəndaşı Mamedov Vuqar Aqalı oğlunun hüquqlarını müdafiə edən B.Abdullayev qəzetimiz vasitəsilə növbəti dəfə Rusiyanın Azərbaycandakı səfiri Mixail Boçarnikova müraciət ünvanlayıb. Onun məktubunu olduğu kimi dərc edirik:**



"Hörmətli redaksiyası! Ötən saylarınızın birində "Bütün qanunsuz hərəkətlərin başında Kamran Əliyevin özü dayanır" başlıqlı yazıda cənab Prezidentə və digər məmurlara olan müraciətimi dərc etmişdiniz. Öncə onu qeyd edim ki, Baş prokuror Kamran Əliyevin bütün cinayətlərin başında dürmasını təkcə biz demirik, bunu Binəqədi rayon prokuroru Fuad Məmmədov da deyir və 08.08.2022-ci il tarixli 821-Ş-22 nömrəli məktubunda öz imzası ilə təsdiq edir.

Baş prokuror Kamran Əliyevin bütün cinayətlərin başında dürməsını təkcə biz demirik, bunu Rusiya Səfirliyinin Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə göndərdiyi nota (N0-1600) da təsdiq edir.

Lakin, görünür, nə Rusiya səfirliyinin verdiyi nota, nə də bizim müraciətlərimiz cənab Prezidentə çatmır, qarşısını alırlar. Odur ki, bu yazımda müraciətimizin cənab Prezidentə çatdırılmasını Rusiya Federasiyasının Bakıdakı səfirliyindən xahiş etmişəm.

**Hörmətli Səfir!**

Bildirirəm ki, Rusiya Federasiyasının Bakıda fəaliyyət göstərən Səfirliyinin Konsulluq şöbəsinin sözçüsü A.Tlostanovun 24.10.2022 ci il tarixli, 3208/KO nömrəli məktubunu aldım, oxudum. İşin içində olan bir adam kimi Baş prokuror Kamran Əliyevin Rusiya səfirliyinə yalan məlumat verərək, sizləri aldatması məni çox məyus etdi.

Azərbaycan Respublikasının Baş Prokurorluğunun rus dilinə tərcümə olunmuş cavab məktubu ilə Rusiya səfirliyinə bilərəkdən yalan məlumat verilməsi məndə bir daha Azərbaycanın Baş prokuroruna qarşı ikrah hissi oyatdı.

**Cənab Səfir!**

Konsulluq şöbəsinin 24.10.2022 ci il tarixli, 3208/KO nömrəli məktubuna əlvə olunmuş arayışda Azərbaycan Respublikasının Baş Prolurorluğu bildirir ki, Mamedov Vüqar Ağali oğluna qarşı Vüsal Ələkbərov tərəfindən törədilmiş dələduzluq hərəkətləri tərəfimizdən araşdırılmışdır. Və qeyd edilir ki, Mamedov Vüqar Ağali oğlunun şikayəti əsasında toplanmış material Vüsal Ələkbərovun barəsində Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 178.2.1 və 178.2.4 maddələri ilə, Binəqədi rayon Polis İdarəsi tərəfindən qaldırılmş 220040106 nömrəli cinayət işinə birləşdirilməsi üçün Binəqədi rayon Polis İdarəsinə göndərilmişdir. Hal-hazırda göstəriş əsasında toplanmış material üzürə araşdırılma davam etdirilir.

Arayışdan görünür ki, Baş prokuror səfirliyə verdiyi məlumat yalandır, cəfəngiyyatdır. Çünki hal-hazırda Binəqədi rayon Polis İdarəsində belə bir material yoxdur. Belə olan halda, hansısa araşdırmadan, prokurorun obyektiv movqe nümayiş etdirməsindən söhbət gedə bilməz. Elə buna görə də material Xəzər rayon Polis İdarəsində hərəkətsiz qalmaqdadır.

**Hörmətli Səfir!**

Diqqətinizə çatdırıram ki, Baş prokuror Kamran Əliyevin sizləri aldatmasını, cinayətin üstünü ört-basdır etməsini tək biz demirik.

Bunu Binəqədi rayon prokuroru, baş ədliyyə müşaviri Fuad Məmmədov deyir və bizə ünvanladığı 08.08.2022-ci il tarixli, 821-Ş-22 nömrəli cavab məktubu ilə təsdir edir. Fuad Məmmədov bildirir ki, Vüsal Ələkbərovun Vüqar Mamedova qarşı dələduzluq hərəkətləri etməsi barədə müraciəti 03 noyabr 2021-ci il tarixdən 12 aprel 2022-ci il tarixədək olan 6 ay müddət ərzində araşdırılmamışdır, Vüqar Mamedovun şikayətçi olduğu Vüsal Ələkbərov və eləcə də digər şəxslərin izahatları alınmamışdır, Vüsal Ələkbərovun hərəkətlərində cinayət qanununda nəzərdə tutulan hər hansı cinayətin tərkib əlamətlərinin olub-olmaması müəyyənləşdirilməmişdir, hadisə cinayət kimi qeydə alınmamışdır, vahid uçota qoyulmamışdır, həmin cinayətin törədilməsində təqsirləndirilən şəxs qismində hər hansı şəxs cəlb edilməmişdir.

Azərbaycan Respublikasının Cinayət Prosesual qanunvericiliyinin tələblərinə riayət edilməmişdir və qanunvericiliyin tələbləri kobud şəkildə pozulmaqla materialın aidiyyəti üzrə göndərilməsi haqqında Qərar qəbul edilmədən material Xəzər rayon Polis İdarəsi tərəfindən Binəqədi rayon Polis İdarəsinə göndərilmişdir.

Binəqədi rayon prokuroru bildirir ki, Xəzər rayon Polis İdarəsi tərəfindən Vüsal Ələkbərobun barəsində cinayət işi başlanılmadığı və Vüsal Ələkbərova İttiham İrəli sürülmədiyi üçün toplanmış material 4 ay hərəkətsiz saxlandıqdan sonra, 08.08.2022-ci il tarıxdə yenidən Xəzər rayon Polis İdarəsinə geriyə qaytarılmışdır.

**Cənab Səfir!**

Dəhşətlisi odur ki, Fuad Məmmədovun bildirdiyi kimi, 08.08.2022-ci il tarixdən material Xəzər rayon Polis İdarəsində olsa da, Baş prokuror Kamran Əliyev 24.10.2022-ci il tarixli cavab məktubunda bildirir ki, material Binəqədi rayon Polis İdarəsindədir və hal-hazırda araşdırma davam etdirilir.

Maraqlıdır, görəsən Baş prokuror nəyə görə Rusiya səfirliyini aldatmışdır? Kamran Əliyevin Respublikada törədilən cinayətlərdən həqiqətənmi xəbəri yoxdur? Onu Rusiya səfirliyinə yalan məlumat verməyə kimlər məcbur etmişdir? Yoxsa həqiqətən də oz sələhiyyətlərinin öhdəsindən gəlməyi elə bu cür bacarırg

**Hörmətli Səfir!**

Rusiya vətəndaşı Vüqar Mamedova qarşı törədilmiş cinayət hadisəsinin üstü bu günə kimi ört-basdır edilmişdir. Yoxsa Baş prokurora nə güc düşmüşdür ki, səfirliyi bilərəkdən aldatmışdır?!

**Cənab Səfir!**

Binəqədi rayon prokuroru Fuad Məmmədov Vüqar Mamedova qarşı dələduzluq hadisəsi törədildiyini təsdiq etsə də, Kamran Əliyev cinayətin üstünün ört-basdır edilməsində maraqlıdır. Ona görə də, bu barədə Azərbaycan Respublikasının Prezidentinə şəxsən məlumat verməyinizi xahiş edirəm".

**Hazırladı: RƏŞAD**

***Redaksiyadan: Yazıda adları qeyd olunan qurumların və şəxslərin mövqeyini dərc etməyə hazırıq.***

Nəsrəddin Tusi adına Şamaxı Astrofizika Rəsədxanasında Astrofizika və ulduz astronomiyası ixtisası üzrə dissertasiya müdafiə etmiş, fizika üzrə fəlsəfə doktoru, dosent Yanoş Mahmud oğlu Məhərrəmov tərəfindən "Hürriyyət"in redaksiyasına məktub daxil olub. Müəllif dissertant Zahir Ağamurad oğlu Səmədovun doktorluq dissertasiyası mövzusunda təqdim etdiyi avtoreferata verilən ilkin rəylə bağlı ŞAR-ın nəzdində yaradılmış Birdəfəlik Dissertasiya Şurasına müraciət edib. Müəllifin yazısını olduğu kimi dərc edirik:

# Biabırçı dissertasiya və ona verilən rəylər...



## Avtoreferata verilən ilkin rəylərlə bağlı faktlar Dissertasiya Şurasının diqqətinə çatdırılır...

İddiaçı Z.A.Səmədovun "A-G spektral sinifli ulduzların fundamental parametrləri və kimyəvi tərkibi" mövzusunda təqdim etdiyi doktorluq dissertasiyası işinin "avtoreferatına" çox da dərinliyə getmədən vizual görünən çoxsaylı ciddi nöqsanlara obyektiv rəyimi və əsaslandırılmış yekun fikrimi aşağıdakı şəkildə bildirirəm:

**1)** İddiaçı mövzunun aktuallığı hissəsində köçürməyə və plagiata yol verdiyindən, cümlələrin əksəriyyəti gülünc doğuran formada bayağı və mənasız görünürlər. O, bu hissədə hamının bildiyi ümumi cümlələri müxtəlif frazalarla təkrarlamış və konkret mövzu üzrə aktuallığın nədən ibarət olduğunu göstərə bilməmişdir. İddiaçının bütün avtoreferat boyunca yazdığı cümlələrin əksəriyyəti çox pis yazı stilində olmaqla qeyri-müəyyən struktura malikdir. Mübtədası cəmdə olan cümlələrin xəbəri təkdə və əksinədir. Cümlələrin əksəriyyəti qeyri-müəyyən zaman formasındadır.

Rəyçinin iradı: İddiaçı bu avtoreferatı və ona uyğun dissertasiya işini yenidən işləməklə qurduğu cümlələri qaydaya salmalı, gülünc doğuran bayağı sözləri mətndən çıxarmalı və əksəriyyəti qeyri-müəyyən zaman formasında işlənmiş cümlələri düzəltməlidir.

Nümunə üçün qeyd edirəm: Avtoreferatın 3-cü, 4-cü, 53-cü səhifələrində iddiaçı yazıb ki... "kimyəvi elementlər və onların məhsulları ulduzların atmosferlərinə çıxarılmalı"... Bu nə yazıdır, kim çıxarır onları? Çoxsaylı nöqsanları avtoreferatın səhifələrinin üzərində aydın oxunan formada qeyd etmişəm.

**2)** Rəyçinin iradı: Avtoreferatda çoxsaylı mənasız, yersiz və gülünc doğuran söz və söz birləşmələrinə rast gəlinir. Onlardan bəzilərini qeyd edirəm: 3-cü səhifədə "kimyəvi elementlərin yaranması", 5-ci səhifədə "...əvvəllər alınmış nəticələrdən keyfiyyətcə fərqlənən dəqiq nəticələr...", 6-cı səhifədə "...problemin həllini təmin etmək...", 7-ci səhifədə "... bu dövriyyəli reaksiyalar...", 13-cü səhifədə müəllif şəxsi töhvə yazmaq əvəzinə həmin hissədə "məsələnin qoyuluşunun, hesablamaların, interpretasiya və nəticələrin alınmasının, təhlilinin və həmçinin müşahidə materiallarının alınmasının iddiaçıya aid olması"nı yazması və bununla da "doktorluq iddiaçısının" hələ şəxsi tövhənin nə olduğunu bilmədiyinin aşkarlanması, 14-cü səhifədə iddiaçının öz dissertasiyasının 1-ci fəslində spektroqraf cihazlarını tədqiq etməsini yazması, 15-ci səhifədə istifadə edilmədiyi halda İRAF və MİDAS-dan bəhs edilməsi və daha sonra DECH proqram paketlərinin İRAF və MİDAS-dan üstün olmasını uydurması, avtoreferatın bir çox səhifələrində köhnə klassik Kuruç modelinin ifrat dərəcədə şişirdilərək ən müasir model adlandırılması (halbuki Kuruçun özü, özünün yaratdığı sözügedən modelə şübhə etdiyini etiraf edib), avtoreferatın bəzi səhifələrində "ulduz ulduz" sözlərini yanaşı işlədib pis təəssürat nümayiş etdirməsi, ulduzların spektral siniflərinin effektiv temperaturlardan asılılıq diaqramı kimi heç bir elmi yeniliyi ifadə etməyən və həm də gülünc doğuran belə nöqtələr çoxluğundan ibarət qrafikləri qurub onu ilk dəfə olan elmi yenilik kimi təqdim etməsi, avtoreferatda çoxsaylı cümlələrin ortasında fiziki parametrləri hər dəfə yersiz olaraq yazmaqla ifadə etdiyi mənanı qəlizləşdirməsi, avtoreferatın bəzi səhifələrində (səh.53) ifratnəhəng sözünü ayrı-ayrılıqda "ifrat nəhəng" kimi yazması, avtoreferatın bir çox səhifələrində eyni simvolu və ya sözü, söz birləşməsini olduqca çoxlu sayda işlətməsi, "karbon, azot, natrium kimyəvi təkamül etmiş elementlərdir" (səh.54) kimi lağ-lağı ifadə yazması və hətta həmin ifadənin müdafiəyə çıxarılan müddəalarda yazılması, hesablamaların beynəlxalq proqramlar vasitəsilə apardığını yazması (səh.59) və sayr çoxlu sayda ciddi nöqsanlar təsdiq edir ki, iddiaçının həm özü, həm də təqdim etdiyi iş "doktorluq" elmi dərəcəsinə layiq deyil.

**3)** Rəyçinin iradı: Avtoreferatda orfoqrafik səhvlərin sayı 72-dən çoxdur. Müəllifin avtoreferatında ulduzların effektiv temperaturu gah "Teff", gah da "Tef", gah da "Teff" kimi yazılıb. Başqaları tərəfindən əldə edilmiş formullar, düsturlar, qaydalar (hətta modellər də) avtoreferatda istinadsız yazılmaqla iddiaçının nailiyyətləri kimi təqdim olunub ki, bu yolverilməzdir. Odur ki, avtoreferatda çoxlu sayda təkrarçılıq, köçürmə və plagiat vardır. Cümlələrin əksəriyyəti qeyri-müəyyən zamanda və həm də icmal stilindədir. Bu da ondan irəli gəlir ki, başqalarından köçürmə zamanı hazır tərcümə proqramlarından istifadə edilmiş, lakin sonradan cümlələrə yaxşı düzəliş verilməmişdir.

**4)** Rəyçinin iradı: İddiaçı avtoreferatda qeyri-elmi sözlərdən və hətta gülünc xarakterli ifadələrdən də çoxlu sayda istifadə etmişdir.

**5)** İddiaçının təqdim etdiyi iş olduqca çox zəif olduğundan o, bunu ört-basdır edib diqqəti əsas məsələlərdən yayındırmaq üçün avtoreferatda (deməli dissertasiyanın özündə bu lap çoxdur) çoxlu sayda cədvəllərə və şəkillərə yer vermişdir.

Nümunə üçün qeyd edirəm: iddiaçı avtoreferatda 11 səhifədə cədvəllər, 13 səhifədə isə çoxlu şəkillər təqdim etmişdir. Halbuki bunlara lüzum yox idi, cəmi 2-3 səhifəlik cədvəl və eyni sayda da şəkilləri avtoreferatda təqdim etməklə kifayətlənmək daha münasib idi.

**6)** Avtoreferatda səhifə 48, 49, 50, 51-dəki şəkillər çox səliqəsizdirlər. Belə səliqəsiz şəkilləri avtoreferatın səhifələrinə çıxarmazlar. Bu biabırçılıqdır və onları avtoreferatdan silmək lazımdır.

### Müdafiəyə çıxarılan müddəalar bölməsinə dair

Bu avtoreferatda cəmi 8 punktda müddəa olmayan "müddəalar" yazılmışdır. Bu bölmədə yazılmış söz və ifadələrin heç birisi əvvəla müddəa cümləsi deyil, ikincisi də müddəa deyil. Çünki burada yazılanların hamısı məlum faktlardır, köçürmə və plagiatdır. Lakin iddiaçı müddəa adlandırdığı bu punktlardakı cümlələri o qədər bərbad təqdim edib ki, köçürmə və plagiatın ünvanını bu dəfə tam açıqlamıram. Odur ki, bu avtoreferatda müddəa kimi təqdim olunmuşların hamısı köçürmə və plagiat olsa da, iddiaçı əvvəlcə gərək onları müddəa formatına salsın ki, sonra rəyçi kimi ikinci mərhələdə onların haradan köçürüldüyünü və deməli plagiat olmasını bir-bir sübut edəcəyəm.

Aşkar görünür ki, iddiaçı müddəanın nə olmasını, onun necə yazılmalı olduğunu bilmir.

**Ona görə də bu dəfəki açıqlamada hələlik biabırçılıqlardan bir neçəsini qeyd edirəm:**

Birinci punktda yazılıb: Ulduzların fundamental parametrlərinin təyininin model, parallaks, infraqırmızı sel üsulları dəqiq üsullardırlar.

**Rəyçinin iradı:** Bu müddəa deyil və cümlənin özü də müddəa cümləsi deyil, bu öz yerində. Biabırçılıq odur ki, iddiaçının qeyd etdiyi parametrlərin təyini üçün model, parallaks və infraqırmızı sel üsulları dəqiqdir, yaxud qeyri dəqiqdir - bunun dissertasiyanın mövzusuna nə aidiyyəti var? "Dissertasiya" işinin mövzusu, məqsədi, predmeti hansısa üsulun dəqiq olub-olmamasını araşdırıb müəyyən etmək deyil axı...? Özü də belə biabırçılıq birbaşa "müdafiəyə təqdim olunan müddəalarda" yazılıb...???

Namiq Cəlilov, "professor" Nəriman İsmayılov, Ədalət Ətayi - belə rüsvayçılığa "hə" deyib həmin avtoreferatı imzalayıb möhürləyəndə utanmadınız heç...? İddiaçı Zahir Səmədov fakt görünür ki, heç cümlələrinin baş-ayağını bir yerə yığa bilməyib, nə yazdığını anlamır. Bəs sizə nə olmuşdu? Yoxsa sizlər də ona taysınız bəlkə? Elminiz budurmu? Şamaxı Astrofizika Rəsədxanasında astroiqlim deyəndə bu biabırçılıqları nəzərdə tutursunuz?

**ƏLAVƏ İZAHAT:** Üsulun dəqiqliyini müəyyən etmək üçün gərək iddiaçının özü də hər hansı bir alternativ model və ya başqa bir üsul yaradıb təqdim edəydi, onun üstünlüklərini əsaslandıraydı və başqa mövcud üsullarla müqayisə edəydi - əlbəttə əgər dissertasiyanın mövzusu bunu tələb edirsə. Amma bu "dissertasiya" işinin adı "A-G spektral sinifli ulduzların fundamental parametrləri və kimyəvi tərkibinin təyini"dir. Amma iddiaçı həmin gülünc cümləsini müdafiəyə çıxarılan 1-ci müddəa adlandırıb əslində bəyan edir ki, "Ay Kuruç, ay bu modelləri icad edən digər filankəslər - halaldı sizlərə, yaratdığınız modellərdən xoşum gəldi, düzgün nəticələr verir və ona görə də sizin icad etdiyiniz bu modelləri dəqiq hesab edib müddəa kimi müdafiə edirəm"...???

İkinci punktda yazılıb: "təyin olunmuş fundamental parametrlər əsasən baxılan ulduzların spektral və işıqlıq sinfinə uyğundur".

**Rəyçinin iradı:** Əvvəla bu müddəa cümləsi deyil və yeni müddəa da deyil. Hansı fundamental parametrlər? Qeyri müəyyən yazılıb. Yaxşı söhbət hansı ulduzlardan gedir? Bu da konkret göstərilmir. Bəs mətndə yazmışdın ki, ulduzların hansısa birinin işıqlıq sinfi II yox, IV və yaxud V olmalıdır...? Görürsüzmü ziddiyyəti?

**Üçüncü punktda yazılıb:** "proqram ulduzların atmosfer modelləri hesablanmışdır" - bu müddəa deyil, biabırçılıqdır. Əvvəla müddəada ulduzların adları konkret göstərilməliydi, digər tərəfdən bu müddəa cümləsi deyil. O cümlədən hansısa naməlum ulduzların atmosfer modellərinin hesablanmasının özü də müddəa deyil.

Digər 4-8-ci punktlarda yazılanların hamısı eyni dərəcədə bərbad vəziyyətdədir.

**Yenə nümunə göstərirəm:** Müddəa kimi təqdim olunanların 6-cı punktunda deyilir ki, "ulduzların təkamülünün sakit mərhələsində metalların miqdarında dəyişkənlik olmur". Amma 7-ci punktda deyilir ki, "A,F,G spektral sinifli ifratnəhəng ulduzların atmosferlərində təkamül prosesində yüngül elementlərin miqdarında dəyişkənlik olur". Bir-biri ilə ziddiyyəti görmürsünüzmü? - birində yazır ki, metalların miqdarında dəyişkənlik olur, digərində isə "metallar" sözünü "yüngül elementlər" sözü ilə əvəzləyib yazır ki, onların miqdarında dəyişkənlik olur...? Kimyəvi tərkib məsələsində Hidrogen və Heliumdan başqa, qalan elementlər metallar adlandırılır, istəyirsən onların adını metallar yaz, istəyirsən yüngül elementlər yaz eyni şeydi... Hələ 7-ci punktda kimyəvi elementin təkamülü sözlərini çox da açıqlayıb demirəm.

Göründüyü kimi yazılanların heç birisi həm müddəa formatında yazılmayıb, həm də yeni elmi nəticə deyildir. Səhvlər, nöqsanlar, ciddi qüsurlar o qədər çoxdur ki, hamısını bu rəydə yerləşdirəndə qarışıqlıq alınır. Buna görə də müdafiəyə çıxarılan müddəalar bölməsi yenidən yazılmalıdır.

Odur ki, tövsiyyə edirəm iddiaçı müddəanın nə olmasını, onun necə ifadə edilməsini və bir sözlə müddəanın tərifini öyrənməlidir.

### Elmi yenilik bölməsinə dair

*(Ardı var)*

**Yanoş MƏHƏRRƏMOV,**
**Fizika üzrə fəlsəfə doktoru, dosent**



Paşa Yaqub,
Elmi-lədun bilicisi

# Əllər tək qiyamət günü deyil, indi də danışır...

**Təsəvvür edin ki, bir nəfər öz düşməni ilə biyabanda rastlaşır və bıçağını çıxararaq, düşmənini qətlə yetirir. Həmin bıçağı qolu gəldikcə biyabanlığa fırıldadır, əlini də su kanalında yuyaraq, heç bir iz buraxmadan evinə gəlir...**

Meyit tapılır. Həmin öldürəni şübhəli şəxs qismində saxlayırlar. Lakin əldə sübut olmadığından, şübhəli qətli boynuna almır. Bütün təzyiqlərə, işgəncələrə baxmayaraq, dil-dil ötür ki, mən öldürməmişəm, sübut edin!

...Bir gün biyabanda həmin bıçaq birinin (polisin, yaxud biçinçinin...) qarşısına çıxır və dərhal müstəntiqə təhvil verilir. Barmaq izləri ekspertizaya verilir və sübut olunur ki, şübhəliyə məxsusdur. Müstəntiq bıçağı sellafon torbada stolunun üstünə qoyur və tapşırır ki, şübhəlini gətirin. Şübhəli gəlir, oturur müstəntiqin qarşısında. Müstəntiq torbanın ucundan qaldırır, bıçağı müttəhimə göstərir. Müttəhimin dünənə qədər bülbül kimi ötən dili artıq susur. Dilin danışmağa ehtiyacı qalmır. Çünki artıq əl DANIŞIR. Əl danışanda dil susur, qiyamət günündəki kimi (bundan sonra müttəhimin "o dünyası" - türmə həyatı başlayır).

Bura qədər kriminal dildə izah etdik. İndi keçək riyaziyyata. Yəni mövzunu riyazi dildə davam etdirək.

### Quranda barmaq izləri

İnsanın anatomik quruluşunda olan saysız-hesabsız hikmətlərdən biri də barmaq izləridir. Dünya yaranandan nə qədər insan gəlib-getsə də, heç



birinin barmaq izləri biri-birinə bənzəməyib. Quranda bu mövzuda cəmi bir ayədə söhbət açılır. Bildirilir ki, qiyamət günü insanlar dirildilərkən, həmin izlər olduğu kimi bərpa olunacaq və əməlləri ona həmin izlərlə sübut olunacaq:

"Bəli, Biz onun barmaqlarını (barmaq izlərini) da düzəltməyə qadirik!" Quran, 75:4.

Gəlin indi sizinlə birlikdə Quranın birinci ayəsindən başlayaraq, 75-ci surənin 4-cü ayəsinə (barmaq izlərinə) qədər sayaq. Həmin barmaq izlərindən bəhs edən yeganə ayəyə çatanda görəcəyik ki, bu, Quranın 5555-ci ayəsidir.

Deyəcəksiniz ki, nə olsun?

İndi də gəlin iki əlimizi və iki ayağımızı yanaşı qoyub, barmaqlarımızı sayaq: 5555 ədədini gördünüzmü?!

Bu da "Qiyamət" (75) surəsinin 4-cü ayəsini göstərirmi?

"Bəli, Biz onun barmaqlarını (barmaq izlərini) da düzəltməyə qadirik!" Quran, 75:4. (5555-ci ayə.)

Elə isə, susaq! Bundan sonra nə isə danışmağa, yazmağa ehtiyac yoxdur. Çünki artıq əllər riyazi dildə də danışdı və haqqı təsdiqlədi!

Unutmayın ki, Prezidentdən tutmuş, dağdakı çobana qədər hamının əlləri belə danışacaq (həm bu dünyada, həm o dünyada)! Odur ki, əməllərinizə diqqət edin. Çalışın ki, barmaq izləriniz ancaq gözəl əməllərin üzərində qalsın. Məndən demək.

# Nankorlar və xainlər

## Hər şey 5-6 il ərzində baş verdi...

Əvvəlcə Azərbaycan və Türkiyədən olan ziyalılara ləkə atıldı...

Sonra həmin insanlar arzu edilməz şəxs edilərək yurdlarına buraxılmadı...

İndi isə məktəblərdə Ana dilində olan dərslərin sayı azaldı...

Və nəticədə "Vətən Müharibəsi" qeyd edilmədi...

Coğrafi olaraq Azərbaycana yaxın olduğu düşünülən, millilik baxımından isə Azərbaycandan çox uzaqda olan Gürcüstanda nələr yaşandığına nəzəri-diqqət keçirməyin vaxtı çatıb...

Bəlkə də keçib...

Keçdiyimiz həftə "Vətən Müharibəsi"ndə əldə edilən qələbənin 2-ci il dönümü səfarətlər vasitəsilə dünyada, yerli icma nümayəndələri tərəfindən isə ya-





şadıqları məmləkətlərdə qeyd olundu...

Lakin Borçalıda hər şey tamamilə fərqli oldu. Həmən gün Borçalıda azərbaycanlıların yaşadığı ən böyük şəhərin Bələdiyyə sədri və həmin ərazi üzrə parlaman üzvü Mixail Cavaxişvilinin heykəlinə üz tutdular...

Mixail Cavaxişvili digər gürcü İosif Cuqaşvili Stalin tərəfindən repressiyaya məruz qalmış yazıçıdır.

Cuqaşvili tərəfindən repressiyaya məruz qalan hər bir şəxsin anım günü mütləq qeyd olunmalıdır.

Amma...

Əmması budur ki, axı həmin gün həm də qanını daşıdığın, başın hər bəlaya girəndə boylandığın milli dövlətində qələbə günüdür...

Həmin gün müharibədə şəhid olmuş şəxslərin evlərini ziyarət etmək olmazdımı? Əlbəttə, olardı...

Bəs nə oldu? Bu qələbə haqqında heç kim heç nə danışmadı, heç nə etmədi...

Bəlkə də heç kim olduqları üçün hər hansı təşəbbüslə çıxış edə bilmədilər...

Bəylər, bu qələbəni niyə qeyd etmədiniz?!

Üzrlü sayın "bəy" dedim, siz axı bəylikdən imtina etmiş, məmləkətdə vəzifə mənsubu olmaq üçün batanoya çevrilmisiniz...

Bunları anladıq, bəs ictimai aktivistlər haradadır?

Bilməyənlər üçün deyim haradadır...

Prezident Salone Zurabişviliyə Nika Qvaramiyanın həbsdən azad etməsi üçün məktub ünvanlayır...

Xub. Bəs sonra...

Sonra Qvaramiyanın məktuba cavabını böyük fəxarət hissə ilə paylaşır.

Xub. Anladıq, bəs sonra bunlar haradadırlar?

Səhər Azərbaycanı Qarabağı azad etdiyinə görə mitinq keçirən ermənilərlə yan-yana səfarət qarşısında...

Günorta demokratiya adı altında milləti təhqir etməkdə, kimin neçə yaşında evlənməli olduğunu müzakirə etməkdə...

Axşam isə səhər mitinq keçirdiyi səfarətin başçısı ilə yan-yana...

Bu cür insanlara nə adı verilməlidir...

Birini mən deyim, gerisini özünüz gətirin: Nankorlar və xainlər...

**Duman TİGİN**

# Gənclərə açılan yol

**7-14 noyabr 2022-ci il tarixində Azərbaycan Bəstəkarlar İttifaqının təşkilatçılığı ilə Bakıda "Zəfər Bayramı"na həsr olunmuş Gənc bəstəkarların yeni əsərlərindən ibarət Plenum baş tutmuşdur. Layihə çərçivəsində 11 noyabrda Bəstəkarlar İttifaqının Ü.Hacıbəyli adına Konsert Salonunda keçirilmiş, dinləyicisi olduğum kamera-vokal konserti barəsində bəhs etmək istərdim.**

Adından da bəlli olduğu kimi, konsert gənclərin vokal əsərlərindən ibarət idi. Proqramı möhtərəm oxucularla paylaşmaq istəyirəm: Vəfa Bağırzadə "Azərbaycan" (söz: Nəriman Həsənzadə, ifa: Fəxri Kazım Nicat, konsertmeyster: Aytən Babayeva), Elvin Quliyev "Gəlmişəm" romansı (söz: Rəhman Babaxanlı, ifa: Fəxri Kazım Nicat, konsertmeyster: Nərmin Rzayeva) və "Qayıt Vətənə" əsəri (söz: Oqtay Rza, ifa: İsmət Sabirli, konsertmeyster: Nərmin Rzayeva), Rəcəb Zeynalov "Bir nağıl gecəsi" və "Bağışla" (söz: Nüsrət Kəsəmənli, ifa: Səidə Şərifəliyeva, konsertmeyster: müəllif), Fərid Fətullayev "Vətən" əsəri




(söz: müəllif, ifa: Şaban Cəfərov, konsertmeyster: Ağarəhim Salah), Qumru İmamverdiyeva "Söylə" və "Sən və mən" romansları (söz: Mikayıl Müşfiq, ifa: Səidə Şərifəliyeva, konsertmeyster: müəllif), Sara Dilruba "Şuşa" (söz: Anar Bayramov, ifa: Vüqar Hacıyev, konsertmeyster: müəllif) və "Səngərəm" (söz: Afət Vəlişsoy, ifa: Vüqar Hacıyev, konsertmeyster: müəllif), Sevinc Əliyeva-Qəmbərova "Azərbaycan bayrağı" (söz: Ramiz Qusarçaylı, ifa: Fəxri Kazım Nicat, konsertmeyster: Nərgiz Kəngərli).

Proqram tərtibatından görünür ki, gənc bəstəkarlarımız Zəfər günü qutlamasına məxsusi hazırlaşmış, Vətənimizi öyən, əsgərlərimizin, ordumuzun igidliklərindən bəhs edən mövzulara üstünlük vermişlər. Fəqət belə yüksək ideyaları daşımalı olan əsərlərin çoxunda formal münasibət müşahidə olunurdu. Məhz buna görədir ki, bir çox əsərin musiqisi orijinallıqdan məhrum idi. Buna səbəb həm də müəlliflərin sözə yetərincə önəm verməmələri, məhz sözün musiqini yaratdığını nəzərə almamaları idi. Məsələn, Nüsrət Kəsəmənlinin poetik dilini fransız impressionistlərindən ilham almış musiqi ilə birləşdirmək cəhdi kimi.

"Şuşa" əsərinin önçalğısı, şübhəsiz, müəllifin istedadından xəbər verirdi. Vüqar Hacıyevin ifası isə pafosdan uzaq və səmimi idi. Konsertin ən yaxşı müşayəti Nərgiz Kəngərliyə məxsusdu.

Konsertin təşkilində gözdən yayınması mümkünsüz olan nüanslar vardı. Onlardan əsas olanları zalın yarı boş olması, dinləyicilərin sönüklüyü və tədbirin təntənədən məhrum olması idi.

Bir qədər enerji, xanımlar və cənablar! Gəncləri gurultulu alqışlarla qarşılamaq gərək!

**Leyla Həmid Əhməd Xan**

# İran adlanan Qacar yurdunda nə baş verir?



Dövlətlər, xüsusilə böyük imperiyalar yarandığı vaxtdan yer üzündə baş verən genişmiqyaslı ictimai hadisələrin baş verməsində bu imperiyaların öz maraqları və məqsədləri çərçivəsində birbaşa və ya dolayısı ilə iştirak etməsindən tarixi prosseslərə az-çox bələd olanların xəbəri var. Bu gün İran adlanan Qacar Türk elində Tehran şəhərinə qohumlarına qonaq gələn gənc qızın düzgün hicab etməməsi bəhanəsilə dövlət orqanları əməkdaşları tərəfindən öldürülməsi bütün ölkədə əhalinin ayağa duraraq rejimə inadlı etiraz və müqavimət göstərməsi ortaya bir çox suallar qoyur. Ən mühüm sual isə bu prossesin rejissorunun kimliyi, etirazların qısa müddət ərzində alovlanaraq bu qədər geniş miqyas almasının səbəbləri və onun davamlılıq müddətinin nə qədər olacağıdır. Rejissoru müəyyən etmək üçün bir o qədər də uzaq olmayan tarixə ekskurs edək.

I Pyotordan bəri rus taxt-tacına alman zadəganlarını oturdub, daim Osmanlı türkləri və Qacar türk xanədanı ilə müharibələrə şirnikdirən Avropalılar birinci dünya müharibəsində ruslarla birləşərək Osmanlını çökdürsələr də Mustafa Kamal Paşa Atatürkün və Osmanlı türklərinin qəhrəmanlığı nəticəsində yaradılan kiçik, lakin fövqəladə dərəcədə strateji əhəmiyyətə malik bir coğrafiyada onların iddialarına heç bir maneə törədə bilməyəcək zəif Türkiyə dövlətinin mövcudluğunu qəbul etmək məcburiyyətində qaldılar. Bununla belə, Rusiyada hakimiyyətə sahiblənən bolşeviklər Azərbaycan Demokratik Cümhuriyyətini işğal etdikdən sonra Türkiyənin Azərbaycan türkləri ilə əlaqəsini kəsmək üçün, Azərbaycandan dövlət yaratmaq üçün məcburən alınıb ermənilərə verilmiş İrəvan xanlığı ərazisindən başqa Zəngəzur mahalını da Azərbaycan SSR-nin razılığı olmadan, qanunsuz olaraq Ermənistana verməklə təkcə Şimali Azərbaycanı deyil, Mərkəzi Asiya Türklərinində Türkiyə ilə əlaqəsini kəsdi, hətta Şimali Azərbaycanın tərkib hissəsi olan Naxçıvanı da anklav vəziyyətinə salaraq Azərbaycanın özündən də ayırmış oldu. Ruslarla dünya ağalığı uğrunda mübarizədə əsas rəqib olan ingilislər zəifləmiş Qacar xanədanını da 1925-ci ildə hərbi çevriliş vasitəsilə devirib, yerinə fars mehtərbaşı Rza Pəhləvini gətirməklə Qacar türk dövlətini özlərinin vassalı statusunda etmiş oldu. O vaxtdan bu türk ölkəsini İran adlandırılan fars dövlətinə çevirdilər.

Rza Pəhləvi hakimiyyətinin ilk günündən ölkədə türk dilini, mədəniyyətini, türk milli varlığına aid olan nə varsa çox sərt qadağalara məruz qoydu. Bununla da təkcə faydalı qazıntıları, xüsusilə də karbohidrogenlərlə çox zəngin olan, ən önəmlisi də ruslara qarşı mübarizədə mühüm strateji əhəmiyyət daşıyan bu ərazi Pəhləvilər hakimiyyətinin sonunadək, yəni 1978-ci ilədək iqtisadi, hərbi, siyasi cəhətdən ingilislərin ixtiyarına keçdi. 1953-cü ildə Baş nazir, doktor Müsəddiqin dövründə neft sənayesi milliləşdirilsə də ölkə iqtisadi, hərbi, siyasi cəhətdən ingilislərin təsir dairəsi və nəzarətində qalmaqda idi. Son dərəcə mürtəce idarəetmə sistemi, zəngin iqtisadi imkanların olması qarşılığında insanların mütləq əksəriyyətinin çox ağır iqtisadi durumu, üstəlik ölkədə mövcud olan çoxsaylı ABŞ hərbi bazalarının hərbi kontingenti tərəfindən əhaliyə qarşı edilən vəhşi zorakılıqların daim cəzasız qalması artıq 70-ci illərin ikinci yarısında cəmiyyətdə inqilabi əhval-ruhiyyəni formalaşdırmışdı.



İran hökumətinin neft sənayesini milliləşdirməsi ingilislərə vurulan çox ağır bir iqtisadi zərbə idi. Məhəmmədrza Pəhləvinin ruslarla saziş bağlayıb İsfahanda metalərtmə zavodu tiktirməsi, iri feodallardan torpaq sahələrini alıb kəndlilərə paylaması, qısa müddət ərzində tədris ancaq fars dilində olsa da əyalətlərdə məktəblərin tikilməsi İranın bir dövlət olaraq inkişafı və müstəqilləşməsi prossesi olmaqla, ingilislərin xoşuna gələ bilməzdi. Bu əsaslı istehsal sahələrinin farsların çox yaşadığı məntəqələrdə tikilməsi, məktəblərdə tədrisin ancaq fars dilində olmasının İranda yaşayan başqa millətlərin milli inkişafına xidmət etməsə də ingilislərin məhz oradakı hökmüranlığını nə vaxtsa zəiflədəcəyi prosses olduğundan onlar Pəhləvilərin əvəzinə daha ələbaxım hakimiyyətin olmasında maraqlı idilər. Digər tərəfdən, SSRİ də bilavasitə onun sərhəddində, İran ərazisində yerləşən hərbi texnikanın son nailiyyətləri ilə təchiz edilmiş çoxsaylı ABŞ hərbi bazarlarından yaxa qurtarmaq, belə böyük bir təhlükəni öz sərhədlərindən uzaqlaşdırmaq ümidi ilə İranda hakimiyyətin dəyişməsində fövqəladə dərəcədə maraqlı idi. Bu baxımdan Məhəmmədrza Pəhləvinin İrandan sürgün etdiyi Ruhulla Xomeyninin SSRİ-nin nüfuz dairəsində olduğu İraqda məskən salması, oradan Ayətullah Taleqani, Ayətullah Şəriətmədari və digər nüfuzlu din xadimləri vasitəsilə İranda hakimiyyətə qarşı etiraz nümayişlərinin təşkil və bu prosesi idarə etməsi, sonradan da İraqda hakimiyyət sahiblərinin, əhalinin əsas hissəsinin sünnü məzhəb olması, qonşuluqda yerləşən İran hakimiyyətinin İraqda mövcud olan şiələrin vasitəsilə terror edilə biləcək imkanını neytrallaşdırmaq məqsədilə məhz Avropada nüfuz müstəvisində ingilislərlə daim rəqabət aparan, üstəlik əsas Avropa dövlətləri içərisində SSRİ ilə daha isti münasibətləri olan Fransaya köçməsi heç də təsadüfi deyil.



Lakin əsas məsələ dünya ağalığı uğrunda mübarizədə əsas güclü rəqibi olan SSRİ-nin sərhəddində çoxsaylı, dəyəri yüzmilyardlarla, hərbi əhəmiyyəti isə heç bir pul dəyəri ilə ölçülə bilməyən fövqəladə strateji əhəmiyyətli hərbi bazaları olub İranın şahlıq rejimini dəstəkləyən ABŞ-ı neytrallaşdıraraq onun hakimiyyətə gəlməsinə ən əsas maneəni aradan qaldırmaq idi. R.Xomeyni bu məsələni də SSRİ nümayəndələri ilə danışıb, hakimiyyətə gələcəyi təqdirdə ABŞ hərbi bazalarını İrandan çıxarmaq öhdəliyi götürməklə həll etdi. SSRİ ABŞ-ın İranda baş verən prosseslərə hərbi müdaxilə edəcəyi halda İrana qoşun yeridəcəyi barədə ABŞ-a ciddi xəbərdarlıq etdikdən sonra Məhəmməd Rza Pəhləvi ölkə ərazisində SSRİ-ABŞ hərbi toqquşmasının onun üçün fəlakətlə nəticələnəcəyini başa düşüb, - "Mən öz xalqımın cəlladı olmaq istəmirəm" - bəhanəsilə ölkəni tərk etdi. R.Xomeyni isə öz növbəsində həm ruslarla, həm də ingilislərlə ayrı-ayrı onların şərtlərinə uyğun sövdələşdikdən sonra faktiki olaraq hakimiyyətsiz qalmış İrana şou qaydalarında təşkil edilmiş təntənə ilə Tehrana gətirildi. Xomeyni ilk növbədə onun üçün ən təhlükəli amil olan ABŞ-ı neytrallaşdırmaq məqsədilə inqilabçı kütlənin ən radikal hissəsi olan gənclərin vasitəsilə Tehranda ABŞ səfirliyinin bütün heyətini girov götürərək ayrı-ayrı hissələrlə müxtəlif yerlərdə həbsdə saxlamaqla ABŞ-ın hərbi kontingentinin İrandan çıxarılmasına nail oldu.

İran ərazisindən ABŞ hərbi qüvvələrini tam çıxarılması prossesi başa çatana qədər SSRİ-nin onu himayəsini sığortalamaq məqsədilə hətta o zaman Şərqi Almaniyada yerləşən və SSRİ-nin nəzarəti və himayəsində olan İran Hizbe Tudə (İran Xalq Partiyası - Ş.Q.), Bakıda yerləşən Azərbaycan Demokrat Firqəsinin (Cənubi Azərbaycan Demokrat Partiyası - Ş.Q.) leqal fəaliyyətinə icazə verdi. Moskva da öz növbəsində əl altından ABŞ-ın hərbi qüvvələri İrandan çıxdıqdan sonra hərbi çevriliş vasitəsilə öz nəzarətində olan və fars Kiyanurinin başçılıq etdiyi Hizbe Tudəni hakimiyyətə gətirməklə İranı öz nüfuz dairəsinə salmağı hədəfləyirdi. Hərbi çevrilişə başçılığı və kordinasiyasını SSRİ Tehrandakı səfirliyinin hərbi attaşesi, Sov. İKP MK-nın katibi Rusakovun yaxın adamı, olan adını və soyadını unutduğum polkovnik həyata keçirirdi. Bu zaman L.Brejnevin ölməsi, onun yerinə keçməkdə iddialı olan Y.Andropovun Kremldəki Ukraynalı qruplaşmanın üzvü, lideri olub, Brejnevin vəzifəsinə ən real namizəd olan Krilenkonu onun öz kabinəsində güllələyib, Krilenkonun ən yaxın adamı olan Rusakovu isə həbs etdikdən sonra Tehrandan Rusakovun yaxını olan hərbi attaşeni geri çağırdırtdıqdan sonra, bunun nəinki karyerasının, həyatının belə sonu olacağını başa düşən polkovnik SSRİ-nin İranda hazırladığı hərbi çevrilişin planının ən kiçik detallarını belə əks etdirən sənədləri də götürüb təcili Tehrandan İstanbula, oradan isə Londona uçaraq bütün sənədləri o zaman İngiltərənin baş naziri olan "dəmir ledi" Marqaret Tetçerə təqdim edir. İngilislər İranın SSRİ-nin nəzarətinə keçməsinin qarşısını almaq, həm də bununla Homeyni ilə münasibətlərini istiləşdirmək məqsədilə elə ertəsi gün bu planın surətini Xomeyniyə təqdim edirlər. Elə həmin gün də İranda Hizbe Tudənin mərkəzi komitəsinin üzvlərini həbs edib, hərbi çevriliş üçün nəzərdə tutulmuş silah-sursat anbarlarını qapadaraq müsadirə edilir.

O zaman İran mətbuatının xəbərlərinə görə, bir həftə ərzində ölkədə Hizbe Tudənin və Azərbaycan Demokrat Firqəsinin üzvləri və onlarla həmrəy olmaqda şübhəli bilinən on min nəfər həbs edildi. Bir müddətdən sonra Hizbe Tudənin baş katibi fars Kiyanuri və Mərkəzi komitə üzvləri olan bir neçə erməni istisna olmaqla tutulanların hamısı qətlə yetirildi. Bu prosseslərdə də türklərə, ümumiyyətlə türk mənliyinə düşmən münasibət bəsləyən Kiyanuri və erməni millətinə mənsub olanları öldürməyərək azad edilməsi bir daha bunu sübut edir ki, İranda hansı dövlət quruluşu yaradılmasından asılı olmayaraq hər hansı fars hakimiyyəti türk milli mənliyinə düşmən münasibət bəsləyəcək. Bunun ən əsas səbəbi bu gün İran adlanan ərazidə farsların bir qarış belə milli torpağı, ərazisi olmamasıdır. Məhz bu səbəbdən bu gün İran adlanan ərazidə farslar hakimiyyəti ələ keçirdiyi 97 il ərzində ən vəhşi üsullarla bu coğrafiyada türk mənliyinə, türk mədəniyyətinə, türkün tarixi izlərinə son qoymaqla bu coğrafiyanı mənimsəməyə, özəlləşdirməyə çalışmışlar. Türklərin toplum yaşadığı bütün ərazilərdə, o cümlədən Güney Azərbaycan ərazilərində ekoloji, bütün iqtisadi və ictimai sahələrdə süni surətdə fəlakətli vəziyyətlər yaratmaqla türk əhalini öz yurdundan didərgin salaraq xaricə mühacirət etməyə, yaxud fars, kürd, bəluc və s. millətlərin daha çox yaşadıqları ərazilərə köçməyə sövq etməklə onların assimilyasiyasını asanlaşdırmaq, parçalamaqla milli müqavimət imkanlarını yox etməyə çalışırlar.

*(Ardı var)*

**Şapur QASIMİ**

# Doğum və Ölüm mistik qorxu deyil...

**Dünyanı yaşadan iki həqiqətdir: doğum və ölüm! Doğum adi deyil, amma müdriklik də deyil. Yer üzündə bütün canlılar artır, törəyir, lakin nə anaları, nə də ataları övladlarının qayğısını sona qədər çəkmirlər. Eləcə də ölümlərindən xəbərsizdilər, çünki ağlamaq üçün göz yaşları yoxdur.**



Allahverdi Eminov

Dünyanı yaşadan insanlardır, onların anaları və ataları bəllidir, sona qədər nəzərləri övladları üstündədir, xoşbəxt valideynlər dünənki uşaqlarının çiynində "son dünyaya" gedir. Bu qərib dünya o qədər genişdir doğulan və yaşa dolan adamları qəbul edir.

Dünyanı yaşadan bütün canlı məxluqlar arasındakı ünsiyyətdir - münasibətlərdir. Çox qəribədir və paradoksaldır ki, insanlar xoş münasibət qurmaq istəmirlər, bəlkə də bacarmırlar - heyvanlardan fərqli olaraq. Hətta elə dördayaqlılar var yaşadıqları ərazini qoruyurlar, yad heyvanları ora buraxmırlar. Sonacan vuruşurlar - qan - tər içində sakitləşirlər. İnsanlar isə qonşu əraziyə hücum edir zəbt etmək üçün və insanların - sakinlərin qanını tökür. Bu savaşdan Dünya çalxalanır.

Maraqlı odur ki, bu gün İnsan az qala yırtıcı dördayaqlı kimi məşğuldur. Öz hüququna sığınan, sülhsevər, aciz insanları soxulcan qismində görür, mənəvi dünya ilə maddi aləm bir-birinə zidd addımlayır, harmoniya unudulur. Bu iştahla, həvəslə, enerjilə kosmosa can atır İnsan: nə faydası? O yerə - məkana da silah aparacaqdır! Amma bir ümid işığı görünür: İnsan ruhu ölməzdir, məşəl olub yanır, sönmür. Ölüm həqiqətdir, o Dünya üçün oyanışdır, ölümdən sonra həyat var, tarixləşən bu təsəlliyə inanmaya bilmirsən. Buna qədər İnsan insanlığından uzaqlaşmamalıdır, Tanrı qarşısında borcumuzu yerinə yetirməliyik, bu Dünyadan ayrılmamışdan əvvəl düşünməliyik. Bu, hələ də həyatda problem olaraq qalır və düşünürəm ki, Qərb Dünyanı "Qara Ölümə" aparır, ortaya müxtəlif "modern" adında terminlər atır və qloballaşdırır. Qərbpərəst dövlət liderləri də vuruşurlar, halbuki Şərq əxlaqından, mədəniyyətindən və mənəviyyatından bilərəkdən uzaqlaşırlar. Məşhur kinorejissor, orijinal axtarışlı Andrey Tarkovski bir müsahibəsində təsadüfən deməmiş ki: hər zaman Şərq mədəniyyətinin gücünün təsirini üzərimdə hiss etmişəm. Şərq İnsanı özünü mövcud olan hər şeyə bəxş etməyə çağırır. Qərbə isə əhəmiyyətli olan özünü göstərmək, özünə dəyər verməkdir. Bu, mənə sadəlövh, iyrənc, mənən aşağı və insanlıqdan uzaq olmaq təsiri bağışlayır, bu mənada daha çox şərqli oluram. - Dahi rejissor həqiqəti söyləməkdə yanılmamışdır.

Dünya dünyaya gətirdiyi İnsanın içinə Şeytanı buraxır, bunu qəsdən edir ki, böyüdükcə dəyişsin, başqalaşsın. Bu messajı tarixən söz sənətkarları görmüşlər, duymuşlar. Məsələn, Mən Hötenin "Faust"u ilə tanış olandan sonra başqa bir aləmdə oldum və Dünyanı sevmək istəmədim. Əsərdə "Tanrı sözü" vardır. Tanrının Dünyanı xəlq etməzdən əvvəl bununla bağlı bir fikri vardı, sonra yaratdı və bu ideya (fikir) əmələ çevrildi. Hötenin İslama yaxın bir düşüncə tərzinin olduğu həqiqətdir. Doğru - düzgün yolda olan İnsan ətrafında Mefistofel kimi Şeytanlar olsa da, yolundan sapmaz. Eyni düşüncə Lev Tolstoyda əmələ gəlmişdi, həyatının son illərində İslam barədə düşündü yaxşı mənada, əlbəttə artıq gec idi. "Faust"da yazıçı İnsanı hərtərəfdən qiymətləndirir, bu İnsan elmlə yanan, ancaq istədiyinə çatmayan, axtardığını tapa bilməyən, öyrənə bilməyən adamdır. Bu İnsan fəlsəfi suallar qarşısında qoyur özünü: "Dünya nədir?" "Dünyanın əsasında nə dayanır?", "Dünyanın əsasını nə təşkil edir?" - suallara cavab tapmaq istəyir.





Fəlsəfəni, hüquqi mütaliyə edir, lakin öyrənə bilmir, mümkünsüzdür. Caduya, tilsimə baş vurur və şeytanlarla razılığa gəlir. Şeytan Tanrı ilə mərcləşir ki, mən bu bəni adəmi doğru yoldan döndərəcəyəm. Şeytan isə 60 yaşlı Fausta cavanlıq eliksiri içdirir, müharibələrə sürükləyir, gənc qızlarla görüşdürür, hər ləzzəti dadızdırır. Nəhayət, sonda yenə də mələklər gəlib Faustu xilas edirlər. Bəli, inam budur, həyatda İnsan üçün enişlər və yoxuşlar mövcuddur. Hötenin dediyi kimi, doğru yolda qərarlı şəkildə davam edən İnsan heç vaxt məhvə sürüklənməz!

Dünyanın işi "yaxşı - yaman" üstündə davam etməkdədir, alış - veriş üstündə hökmranlıq edir. İnsanlar isə daha "dolu verib boş almırlar", başqalaşıblar, qəribə deyilmi? Taleyi gətirməyən mərhum gənc şair Möhübbətin qənaətidir və haqlıdır:

**Yaxşı-yaman**
**Bu dünyanın işidi.**
**asandırsa**
**tükü tükdən seç, görüm.**
**Biri sənə**
**yaxşı olsa kişidi.**
**Kişisənsə,**
**yamanlıqdan keç, görüm.**

**Bir söz deyim,**
**qoy ürəyim boşala.**
**İndi kimdi**
**dolu verib, boş ala?**
**Gözün dolu,**
**əllərinsə boş ola.**
**Ümidinə**
**çatmısanmı heç görüm?**

**Səni sevib**
**min yol ümid bağladım,**
**Həsrətinlə**
**gecə-gündüz ağladım.**
**Bu eşqini**
**ürəyimdə saxladım.**
**Ürək qalıb,**
**ürəyimdən köç, görüm.**

Bu sevgi də həyata məhəbbətdən doğur və Ölümdən qaçır,amma unutmamalı ki, qəbirstanlıq yolunu gözləyir. O yer ki, ona "məzarstan" da deyirik, başdaşıların bir-birindən xəbərsiz düzülüşüdür. Şairlər üçün müxtəlif bənzətmələrlə seçilir. Mərhum şairimiz Vaqif İbrahimin yozumu da maraqlıdır:

**Qəbirstanlıq...**
**Sinif otağı kimi sakit...**
**Kimsə sual eləyib -**
**Dinc qoymayıb dilini:**
**"Kim yaşamaq istəyir?"**
**Hamı qaldırıb başdaşına**
**dönmüş əlini!**

Bu başdaşıların altında uyuyanlar bir zaman Dünya ilə barışmırdılar, düz yolu köndələn gedirdilər, Dünyanı tanımaq istəmirdilər, aciz adamlara gülürdülər. Dünya isə susurdu, öz işindəydi, qərarını yubadırdı... İnsan: "Ölüm qatarına gecikən(lər) məxluq üçün Allah Dünyanın və məhəbbətin (sevginin) harmoniyasında özünü göstərmir. Beləsinin ovqatında, düşüncəsində Allah müəmmadır. O, anlamaq istəmir ki, saysız, intəhasız real, yaxud yarımreal aləmlə əhaət olunmuşdur, Dünyanın mütləq qanunları var ki, İnsan həyatının labüddən haçansa sona çatmasını şərtləndirəcəkdir.

İnsan sonsuz olaraq ziddiyyətlidir, mürəkkəbdir, habelə bütövdür, nadirdir, azaddır və müəmmadır. Bütövlük onunla sonuclanır ki, o çox şeyi bilir və çox mətləblərdən xəbərsizdir, əsas, mühüm ziddiyyətlər də bundan başlayır, az sonra həyati drama, nikbin faciəyə çevrilir. Filosofların, şairlərin qənaətincə, İnsanın idrakı ona əsaslanmalıdır ki, onun dərk etdiyi mövcud Dünya daim inkişafdadır, hərəkətdədir, sirrini qoruyur, öz aləmlərinin qanunlarına tabeçilik göstərir, qəlbinin sirrini qoruyur. Hətta sevgilisnə açmadığı sirrin parıltısı onun təfəkkürünü qidalandırır.

İnsan Dünyanın çağırışına, səsinə, harayına qarşı cəsur olmalıdır, inamla anlamalıdır ki, özünü idrak yolunda təsəvvür edir, müəmmalarla qarşılaşır və sualla üzləşir: Dünya beləmi gedəcək? Real cavab tapmaqda acizləşir. Təfəkkürü - təxəyyülü azad düşünürsə, reallığı yaşaya bilmək qabiliyyəti, həqiqəti anlamaq fəhmi o halda səmərəli olur - dərin həqiqət, reallıq etiraf edilir: Dünyasını dəyişəndə arxasınca boşluq qoyub getmişdir. Unutmayaq ki, İnsan bir fərd olub yalnız bədəndən, idrakdan, ruhdan ibarət varlıq deyil, İnsanın özü qiymətsiz sərvətdir. Unutmamalıdır ki, varlıq və qeyri varlıq, həyat və ölüm anlamlarını müxtəlif nəzərlərdən keçirir və Ölüm ideyasının özü onun üçün düşündürücü həqiqətdir, ona görə də Ölüm mistik və mənasız qorxu olmamalıdır, gözlənilən bir şey kimi yaddaşına köçməlidir. İnsanın ölümü mütləqdir, labüddür, buna baxmayaraq, o, nikbinliyinə sığınır, gündəlik davranışı, hissləri, ruhu ilə ölümünü unutmağa çalışır; şüursuz olaraq qorxu altında bu fikirdən uzaqlaşır. Onda müəyyən qəribə hisslər əmələ gəlir, real aləmdə yaşadığını hiss edir, sevir, nifrət edir, özündə onu aşılayır ki: Ölməzdir! İllüziyalı ölməzlik - bu inam mənasız səhvləri təkrar etməli olur. Ağıllı, öz yolunu gözləyən, emosiyalarını düzgün idarə edən İnsan Ölümünü mərdliklə qarşılayır və düşünür ki, Ölüm daim sənə çağırış, xəbərdarlıq göndərməyə hazırdır, çünki Sənin yol yoldaşındır. İnsan fəaliyyəti gedişində dünənini xəyalında canlandırır, hətta qəmlənir də, gələcək barədə nikbincəsinə düşünür, belə hallarında o əslində yaşamır,həyatını yamsılayır. Keçmiş haqqında fikirləşməyin mənası varmı? Məgər onu geri qaytarmaq mümkünmü? Amma gələcək barədə düşünmək, nəyisə planlaşdırmaq isə lazımdır, bəlkə də real həyatı elə bu gündür, gələcəyini yaratmağın səmərəli bünövrəsidir. Dünyanın dərkində (çox cüzi də olsa) insan doğuluşu haqqında düşünəndə anlayır ki, dünyaya gələnə qədər sonsuz vaxt keçmişdir. Bizim üçqat fəzamızda əbədiliklə müqayisədə təkcə aylar və illər deyil, hətta əsrlər belə bir an təsiri bağışlayır. Əbədilik qarşısında İnsan həyatı yalnız bir andır və o bir anda əbədilik hiss edər: anın bütövlüyü - bir an da həmçinin onun özüdür, yəni bütövlüyüdür. Bir an bir göz qırpımıdır, həyat bir anda axan çaydır, onun hər anını içmək gərəkdir, rahat nəfəs alasan, Ölüm qarşısında Kosmik sakitliyə çağırışdır!

İnsan ölür, bundan sonra heçliyə qovuşur, torpağa qarışır, gilə çevrilir, bu gildən dulusçular müxtəlif əşyalar düzəldirlər: deyək ki, kuzələr, piyalələr hazırlanır, ondan yenidən gil yapırlar, beləliklə materiyanın əbədi dövriyyəsi başlayır, bu, deyək ki, otlar və güllər vasitəsilə yerinə yetirilir. Hətta bu bitkilər İnsan məzarı üstə bitir, solur, ölür və s... yenidən bitir, baş qaldırır, ləçəklərilə hava udurlar. Maraqlıdır ki, İnsan öləndə onun tozundan kuzə düzəltmək mümkündür, amma kuzədən İnsan yaratmaq qeyri-mümkündür. Ölüm İnsan bədənindən toz əmələ gətirir, bəs Ruh necə olur? Filosoflardan Sokrat və Platonun nəzəri görüşlərində göstərilir ki, İnsan bədənindəki ruh kamil olana qədər bir bədəndən başqa bir bədənə keçir. Kamillik səviyyəsinə çatanda isə bədənlə əlaqəni kəsir. Bu hal "metampsixoz" adlanır. Əgər Ruh heyvan bədəninə köçürsə bu, "metamor formoza" adlanır. Ruh minerallara keçirsə bu, "daşlaşma" adlanır.

İnsan elə məxluqdur ki, son nəfəsində belə, heyifsilənir ki, çox iş görə bilərdi, yaradardı, amma bunu etmədi. Bunu nə üçün etmədi? Və başını qaldırıb əllərini Göyə, Uca Tanrıya tutub yalvarır:

- İlahi, İlahi, nə olar məni dinlə. Gör mən sənin üçün necə musiqilər bəstələyəcəyəm. Dinlə məni nə olar, - bu son yalvarış dahi bəstəkar Bethovenə məxsusdur.

# Neqativ enerji nədir və ondan necə xilas olmaq olar?

## Psixoloq Sabina İbrahimova işıq enerjisinin vasitəsilə neqativ enerjidən qurtulmağın yollarını açıqladı...

Psixoloq və psixoterapevt Sabina İbrahimova "Hürriyyət"in əməkdaşı ilə söhbətində insanlar üçün enerji dəyişikliyinin rolundan danışıb. Onun sözlərinə görə, enerji dəyişikliyi hər bir şəxs üçün böyük əhəmiyyət kəsb edir:



"Hər bir insanın içində pis və yaxşı enerji toplusu var. Həyatdan zövq almaq, yaşamaq üçün xöşbəxtliyə doğru addımlamaq lazımdır. Havadan, sudan, yaşayışımızdan, həyatımızdan zövq alıb və bütün bizə neqativ enerji verən halları çıxarıb, xöşbəxt olmağa, uğur qazanmağa çalışmalıyıq. İnanın ki, bunu bacarmaq üçün sadəcə bədbin, çox danışan və neqativ enerji dolu insanlardan uzaq olmaq lazımdır.

Mən fikir vermişəm, bəzi insanlar (ən çox da qadınlar) evdə, işdə, hətta ailədə belə söz-söhbət yaratmaqdan zövq alırlar. Bu zaman fikirləşmirlər ki, onları sevən, hörmət edən insanları özlərindən uzaqlaşdırırlar".

S.İbrahimova deyir ki, ona daha çox neqativ enerji dolu insanlar müraciət edir: "Əlbəttə ki, enerji gücünə inanıb xöşbəxt, şən həyat yaşayanlar da var. Hər bir insan dinləməyi bacarmalıdır. Çünki bəzi fürsətlər qapını çox asta döyər. İşıq enerjisi qəbul edən xanımlarımız daha özgüvənli, daha xöşbəxt olurlar. Həyatımızda nə olursa-olsun, nə yaşayırıqsa-yaşayaq, bütün yaşananlara təcrübə kimi baxmaq və ayağa qalxıb həyata qaldığımız yerdən daha güclü şəkildə davam etməliyik. Ətrafımızdakı hər kəsə işıq verməliyik, fərqliliyimizi göstərməliyik. Biz gözəl auraya sahib olduqca dünyamız gözəlləşəcək, neqativlər uzaqlaşacaq bizdən. Hər hansısa problemin həll olduğuna inanıb, onu səbrsizliklə gözləmək lazımdır. Belə olduqda kainat bizə bütün sevgisini və bütün bərəkətini verər. Biz də qollarımızı açıb qəbul etməliyik. Dirəndiyiniz hadisələr, gözlədiyiniz pis hisslər həyatımızda qalmağa davam edər və enerjimizi tükədər. İstədiyiniz, gözlədiyiniz gözəl hadisələrə doğru irəliləsəniz, görərsiniz ki, həyatınız həqiqətən də gözəlləşir. Dilimizdə, ürəyimizdə bir şüar, bir söz olmalıdır. Məsələn: "Bü gün həyatın iplərini və məsuliyyətini öz əllərimə almağı seçirəm". Bu halda hər şey istədiyiniz kimi olar, əgər həqiqətən də enerji ilə onu hiss edib istəsəniz".

Psixoloq deyir ki, qadınların 60-70 faizi tutmaq üçün "budaq" axtarırlar, əslində isə "ağacın özü" olduqlarını bilmirlər: "Sevginizi bildirin, sevildiyinizi duyun, xöşbəxtliyi belə taparsız. Qurur, sevgidən qaçmaq - bu olmaz, "mən bu addımı atmamalıyam", "qohum-əqrəba nə deyər", "insan içinə çıxa bilmərəm" kimi neqativ açar sözləri həyatınızdan silin. Həyat, ömür biz insanlara bir dəfə verilir, təkrarı yoxdur. Varlığımızdan zövq alıb həyatımızı yaşamalıyıq. Özümüzü heç kəslə müqayisə etməməliyik, təbii olmalıyıq. Dünyada heç bir çiçək özünü başqa çiçəklə müqayisə etməz. "O niyə daha gözəldir? Niyə qırmızıdır, göydür, sarıdır, narıncıdır, böyükdür, kiçikdir?" deməz. Bu cümləninin özündə böyük enerji var. Güllər bir-birləri ilə rəqabət aparmırlar. Bəli, çox gözəldirlər, amma ən əsası hər biri özünü daha gözəl hesab edir.

İnsan öz zəif nöqtələri ilə qarşılaşmaq üçün həyat ona sınaqlar göndərər. O sınaqlar ki, əslində, onun transformasiya etməsinə şans yaradar. Hadisə nə olur-olsun, hər zaman onun müsbətə xidmət etdiyini unutmayın. Nəyinsə çıxış yolunu bilməməyimiz, o yolun olmaması anlamına gəlmir. Yaxşı hiss etməkdən qorxmayın. Foksunuzu yaxşı hiss etmədiyiniz şeylərdən - edəcəyiniz şeylərə dəyişin.

Çirkli suda üzürsünüzsə, balığın sizə yaxınlaşması ehtimalı çox aşağıdır. Yaxınlaşsa belə, onu görmək şansınız yoxdur.

Zehninizi boşaltmamağınız da ağlınıza gələ biləcək bütün gözəl düşüncələri və ideyaları qaçırmağınıza səbəb olur. Elə isə düşüncələri yox hesab edib, həyatda bütün problemləri geridə qoyaraq, elə bu an həyatdan zövq almağa başlamaq vaxtıdır.

Günə dərin bir nəfəslə, bir anlıq bütün qayğıları və problemləri unudaraq başlayın. Düşünün ki, bu gün başlanğıclar etmək üçün özəl bir gündür. Dənizin misilsiz gözəlliyi və dalğaların rahatladıcı səsi ilə bütün problemlərinizi bir anlıq unudun və həmin anda qalın".



Sabina İbrahimova insanların nə üçün "yox"dan çox "hə" deməsinə də aydınlıq gətirib: "Heç düşünmüsünüz ki, niyə biz "yox"dan çox "hə" deyirik? Çünki içimizdən "yox" səsi gələndə belə, həmsöhbətimizə "hə" deyirik. Ola bilsin ki, biz münaqişə vəziyyətlərindən bu şəkildə qaçmağa və ya məqsədlərimizə bu yolla çatmağa öyrəşmişik. "Yox" deməklə hər hansı bir dostumuzu və ya yaxşı bir işi itirə biləcəyimizi düşünürük. Yəqin ki, bu hekayə uşaqlıqdan başlayır. Və bu hekayə uşağın valideynləri ilə münasibətindən qaynaqlanır ki, bu da əslində uşaq üçün olduqca böyük əhəmiyyət kəsb edir. Hər şey valideynlərdən asılıdır. Uşaq nə geyinəcək, dostlarıyla harasa gedəcək, yeməkdən doyacaq?.. Buna görə də artıq təcrübə formalaşdığı üçün bir çox situasiyadan qaçmaq məqsədilə şüuraltında "hə" deyirik, amma eyni yolda davam etmirik. "Hə" deyəndə psixikamız bununla razılaşır, öz maraqlarımıza və prinsiplərimizə zidd olanda isə tamam əks reaksiya verir. Bu cür hərəkətlər daxili konfliktə səbəb olur və bu, ümumiyyətlə psixikanın narazılıq səbəbindən xroniki gərginliyə çevrilir. Bu gərginlik də, əlbəttə, neqativ enerjinin gücünü göstərir.

Bu gün artıq hər birimiz yetkin şəxslərik və prinsip etibarilə müstəqilik. Bütün situasiyalarda bu şəkildə davranmaq bizdə heç bir müsbət dəyişikliyə səbəb olmayacaq. Uyğunluq və zadəganlıq yaxşıdır, amma bəzən öz ehtiyaclarımızı kənarlaşdıraraq özümüzü unuduruq. İnsanlar buna alışır və biz istənilən manipulyasiyaya məruz qalırıq. Kainatdan gələn müsbət enerjini qəbul etsək, inanın ki, tək süur altı dəyişiklik yox, hətta xarakterimiz də dəyişir".

Psixoloq işıqla bağlı maraqlı bir təcrübə aparmağı da məsləhət bildi:

"İşıq - Kainatdakı ən güclü qüvvələrdən biridir. O bizim, onunla əlaqəli fikirlərimizə cavab verir. Və bizim qalaktikadan başqa da qalaktikalar da mövcuddur.

İşıqla çalışmaq - bizim enerjimizi yüksəldər. O həmçinin titrəyişimimizi yüksəldər, pozitiv düşüncələrimizin gücünü artıra və qəlbimizi aça bilər. Biz onunla bağlantı qura, parlaq bir işığın qaynağı ola və ətrafımızda böyük faydalar yarada bilərik".

İşıqla bağlı kiçik, lakin çox effektli çalışma istəyənlər varmı?

### İŞIQLA ÇALIŞMA

Ruhunuzu dincəldən, sizə rahatlıq verən həzin bir musiqi seçirik və tək otaqda 3 dəfə dərin nəfəs alıb-verib, gözlərimizi yumuruq. Bir anlıq bütün fikirlərdən, ətrafdan, dünyadan uzaqlaşıb, iç dünyanıza döndüyünüzü hiss edin...

Sonra parıldayan bir işıq şəlaləsinin altında durduğunuzu xəyal edin. Bu işıq sizdən axaraq bədəninizi, duyğularınızı və zehninizi neqativlərdən təmizləyir və getdikcə çox parlaq bir hala gəlirg

İşıq bütün bədəninizi təmizləyir, hüceyrələriniz təzələnir və paklaşır...

Rahatlaşdığınız və dərinləşdiyiniz an Olmaq istədiyiniz versiyanızı çağırın və onunla bağlantı quraraq ondan güc alın. Bu işıq sizi bir üst inkişaf səviyyəsinə gətirəcəkdir. Bunu gün içində iş yerində, maşında, evdə, başqa ortamlarda bir neçə dəqiqə ayıraraq edə bilərsiniz.

İşıqla bağlantı qurduğumuzda özümüzlə yüksək aləmlər arasında bir körpü qurmuş oluruq.

Həyatımızı yaxşılığa doğru dəyişməyin vaxtı gəlib, hətta keçib. İrəli baxıb keçmişi unudub, neqativ enerjini yola salmaq lazımdır".

**Hazırladı: Jalə FAMİLQIZI**